# GÜRCÜSTAN

SAYI 59-60 (13.429)
CÜMƏ 1 AVQUST 2025-ci il

Qəzet 1921-ci ildən nəşr olunur
გაზეთი 1921 წლიდან იბეჭდება

"საქართველო"
"SAKARTVELO"

Qəzetimiz milli sərvətimizdir
ჩვენი გაზეთი ეროვნული სიმდიდრეა

İctimai-siyasi həftəlik qəzet // საზოგადოებრივ-პოლიტიკური კვირეული გაზეთი

E-mail: Gurcustan_1921@mail.ru www.gurcustan.com E-mail: gurcustan2023@gmail.com


## GÜRCÜSTANIN BAŞ NAZİRİ İSRAİLİN SƏFİRİ İLƏ GÖRÜŞÜB



***Gürcüstanın Baş naziri İrakli Kobaxidze İsrailin fövqəladə və səlahiyyətli səfiri Hadas Meitsadı qəbul edib.***

Bu barədə məlumatı Gürcüstan hökumət administrasiyası yayıb.

Vida görüşü zamanı Gürcüstan və İsrail arasında mövcud olan çoxəsrlik münasibətlərə və xüsusi dostluğa bir daha diqqət çəkilib.

Baş nazir səfirə iki ölkə arasında əlaqələrin inkişafına verdiyi töhfəyə görə təşəkkür edib və gələcək fəaliyyətində uğurlar arzulayıb.

Görüşdə, həmçinin, Yaxın Şərqdə son dövrlərdə baş verən hadisələr müzakirə olunub və uzunmüddətli sülh və sabitliyin təmin olunmasında diplomatik səylərin əhəmiyyəti vurğulanıb.

ƏMƏKDAŞLIQ

## AVQUSTUN 2-DƏ AZƏRBAYCAN VƏ GÜRCÜSTAN GƏNCLƏRİNİN İŞTİRAKI İLƏ GƏNCLƏR FORUMU KEÇİRİLƏCƏK

***Gənclər forumu Azərbaycandan sonra avqust ayının 2-dən 8-dək öz işini Gürcüstanda davam etdirəcək.***

Bu barədə Milli Məclisin deputatı Arzu Nağıyev Azərbaycan - Gürcüstan Gənclər Forumunda jurnalistlərə açıqlamasında bildirib.

Deputat qeyd edib ki, Azərbaycan və Gürcüstan arasında olan münasibətlər təkcə strateji əhəmiyyətli dövlətlər səviyyəsində deyil, eyni zamanda iqtisadi, siyasi, hərbi və digər istiqamətlərdə olduğu kimi, gənclər arasında da inkişaf edir:

*"Gənclər bizim gələcəyimizdir. Bu forumun keçirilməsində əsas məqsəd gənclərin bir-birinə daha da yaxınlaşmasıdır. Təbii ki, bu məsələ cənab Prezident İlham Əliyevlə Gürcüstan Prezidenti Mixeil Kavelaşvili arasında keçirilən rəsmi görüşdə də qaldırılmışdır,"* – deyə Arzu Nağıyev bildirib.



Azərbaycanda səfərdə olan Gürcüstanın Təhsil, Elm və Gənclər naziri Qivi Mikanadze öz növbəsində azərbaycalı gəncləri Anakliya bölgəsinə dəvət edib.

Nazir jurnalistlərə müsahibəsində forumun əhəmiyyətindən danışaraq qeyd edib ki, gənclərin bu cür təşəbbüslərdə iştirakı ölkələrin gələcəyi üçün mühüm əhəmiyyət daşıyır.

## "BELLİSSİMA!" — SOFİ LORENİN OĞLU GÜRCÜ QIZI İLƏ EVLƏNİB



***Dahi aktrisa Sofi Lorenin oğlu, dirijor Karlo Ponti ötən həftəsonu Gürcüstana gəlib, çoxa (Gürcü milli geyimi) geyinərək sevdiyi qadın Mariam Şarmanaşvili ilə nikah mərasimi keçirib.***

Nikah mərasimi Mtsxetadakı Samtavro monastırında baş tutub.

KİV-in məlumatına görə, sevgilisi naminə dirijor Qabriel (Gavriil) adını alaraq katoliklikdən pravoslavlığa keçib.

Cütlük evliliyini iki mərhələdə qeyd etməyə qərar verib. Rəsmi nikah sentyabrda Cenevrədə baş tutacaq və burada 90 yaşlı Sofi Loren də iştirak edəcək. Məlumata görə, məşhur qayınana gürcü gəlini çox sevir və Gürcüstandakı mərasim üçün ona həsr olunmuş duyğulu bir video-təbrik də göndərib.

İtalyan dirijorla gürcü fitnes məşqçisinin sevgi hekayəsi bir neçə il əvvəl sosial şəbəkələrdə tanışlıqla başlayıb. "Bellissima!" — Karlo Mariamın fotosunu təsadüfən görərkən yazıb. Bundan sonra yazışmalar və dünyanın ən gözəl məkanlarında görüşlər başlayıb.

Aralarındakı 20 illik yaş fərqi sevgililəri dayandırmayıb: Pontinin 57, Mariamın isə 37 yaşı var.

Gürcüstandakı toy mərasiminə hazırlıq olduqca ciddi şəkildə aparılıb. Ponti xüsusi olaraq gürcü rəqsləri dərsi alıb və gürcü dilində sevgi etirafını öyrənib. Cütlük gələcəkdə evliliklərini rutinə çevirməyi düşünmür və onların həyatı romantik görüşlərlə dolu olacağını deyir.

## M.KAVELAŞVİLİ: "SƏFİRİMİZ ARTIQ ABŞ PREZİDENTİ İLƏ GÖRÜŞÜB, MESAJLARIMIZI ÇATDIRIB - BİZ YENİDƏN ƏMƏKDAŞLIĞA HAZIRIQ"



***İyulun 25-də Gürcüstanın ABŞ-dəki fövqəladə və səlahiyyətli səfiri Tamar Taliaşvili ABŞ prezidenti Donald Trampa Ağ Evdə etimadnaməsini təqdim edib.***

Xarici İşlər Nazirliyinin yaydığı məlumata görə, mərasim çərçivəsində keçirilən görüşdə prezident Tramp yeni səfirə gələcək fəaliyyətində uğurlar arzulayıb.

Məsələ ilə bağlı jurnalistlərə açıqlama verən prezident Mixeil Kavelaşvili səfirin ABŞ prezidenti ilə görüşünü müsbət hadisə kimi dəyərləndirib və Gürcüstan tərəfinin münasibətlərin "yenidən yüklənməsinə" hazır olduğunu bildirib:

*"Sevindirici haldır ki, səfirimiz artıq ABŞ prezidentilə görüşüb və bizim mesajlarımızı çatdırıb. Biz münasibətlərin yenilənməsinə hazırıq və qarşı tərəfdən addımlar gözləyirik,"* – deyə M. Kavelaşvili bildirib.

O, qeyd edib ki, münasibətlərin inkişafı üçün məsuliyyəti və təşəbbüsü ABŞ-nin hazırkı administrasiyası və Dövlət Departamenti üzərinə götürməlidir.

Prezidentin sözlərinə görə, əvvəlki ABŞ administrasiyası ilə münasibətlərdə fərqli yanaşmalar mövcud olub və bu yanaşma yeni administrasiyada dəyişib:

*"Biz əvvəldən həmin dəyərlər və çağırışlar haqqında danışırdıq. Biz bu çağırışlarla mübarizə aparırdıq – ABŞ və ya Aİ ilə yox. O zaman onların yanaşması ikili standartlara əsaslanırdı və indi bunu yeni administrasiya da etiraf edir,"* – deyə o əlavə edib.

M. Kavelaşvili bildirib ki, ABŞ-dən gələn ittihamların arqumentsiz olduğunu və tez-tez "rusiyapərəstlik" ittihamının əsassız şəkildə səsləndirildiyini düşünür:

*"Bu gün biz tam səmimiyik, açıq şəkildə vətəndaşlarımıza hansı yolu seçdiyimizi deyirik. Əgər qarşılıqlı addımlar olmasa, biz mövqeyimizi dəyişməyəcəyik,"* – deyə prezident vurğulayıb.

## 1 AVQUST – AZƏRBAYCAN ƏLİFBASI VƏ AZƏRBAYCAN DİLİ GÜNÜ




Bu gün – 1 Avqust Azərbaycan xalqı üçün mühüm əhəmiyyətə malik bir gündür. Bu tarix həm müasir Azərbaycan əlifbasının – latın qrafikalı əlifbanın rəsmi olaraq qəbul edildiyi günü, həm də dövlət dilinin – Azərbaycan dilinin zənginliyinin və əvəzsizliyinin qeyd olunduğu bayramı simvolizə edir.

Azərbaycan dili əsrlər boyu xalqımızın milli kimliyinin, ədəbi və mənəvi irsinin daşıyıcısı olmuşdur. Azərbaycan Müstəqillik qazandıqdan sonra dilimiz dövlət səviyyəsində xüsusi qayğı ilə qorunmağa başlanmış, 2001-ci ildə isə Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə latın qrafikalı əlifbaya keçid tam başa çatdırılmışdır. Elə həmin ildən etibarən 1 avqust tarixi rəsmi olaraq Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü kimi qeyd olunur.

## "AZAL" 30 İLDƏ İLK DƏFƏ OLARAQ ERMƏNİSTANIN HAVA MƏKANINDAN İSTİFADƏ ETMƏYƏ BAŞLAYIB

***Azərbaycan Hava Yolları (AZAL) təxminən 30 ildə ilk dəfə beynəlxalq uçuşlar üçün Ermənistanın hava məkanından istifadə etməyə başlayıb.***

Bu barədə Flightradar24-ün Facebook səhifəsində dərc olunub.

Nəşr yazır ki, AZAL Ermənistanın hava məkanından yalnız hər iki istiqamətdə Naxçıvana uçuşlar üçün istifadə edib. Mövcud dəyişiklik uçuş məsafələrini və aviaşirkət üçün yanacaq sərfini azaldacaq.

Bildirilir ki, bu qərar həmçinin regional əməkdaşlığa doğru potensial addım kimi qiymətləndirilir və hava nəqliyyatının səmərəliliyini artıracaq.

## AVQUSTUN 1-DƏN HANSI DƏYİŞİKLİKLƏR QÜVVƏYƏ MİNƏCƏK?

***Avqustun 1-dən etibarən, Gürcüstanda bir neçə dəyişiklik qüvvəyə minir.***



• Belə ki, avqustun 1-dən **şəxsiyyət vəsiqələri** yeni dizaynda olacaq Ədliyyə Nazirliyinin 10 mart tarixli qərarına əsasən, avqustun 1-dən etibarən yenilənmiş dizayna malik elektron şəxsiyyət vəsiqələri, biometrik pasportlar, diplomatik və xidməti pasportlar, müvəqqəti və daimi yaşayış elektron vəsiqələri və müvəqqəti identifikasiya sənədləri veriləcək.

Yeni şəxsiyyət vəsiqəsində ad, soyad, cins, vətəndaşlıq, doğum tarixi və yeri, şəxsi nömrə, fotoşəkil, imza nümunəsi, vəsiqəni verən orqanın adı, verilmə və qüvvədə olma tarixi, QR kod (şəxs və ya sənəd haqqında məlumatın yoxlanması üçün) barmaq izi və s.

Gürcüstan vətəndaşlarının biometrik pasportlarına gəlincə, nazirliyin qərarına əsasən, yeni dizaylı pasportda və səyahət sənədlərində adı, soyadı, vətəndaşlıq, doğum tarixi, şəxsi nömrə, fotoşəkil, cins, doğulduğu yer, şəxsi imza nümunəsi, buraxılış tarixi, etibarlılıq müddəti, verən orqanın adı, sənədin növünün göstərilməsi, ölkə kodu, sənəd nömrəsi və giriş kodu öz əksini tapacaq.

• Bundan başqa, avqustun 1-dən etibarən Milli Bankın Maliyyə Sabitliyi Komitəsi tərəfindən qəbul edilən yeni qərara əsasən, **750 min lariyədək kreditlərin** yalnız milli valyuta – lari ilə verilməsi məcburi olacaq.

• Avqustun 1-dən **"Magti"** optik-fiber internet xidmətinin tariflərini artıracaq. Şirkət izah edir ki, bu dəyişiklik yalnız 50 Mbit/s sürətli ev interneti və ya internet + IPTV paketindən istifadə edən müştərilərə aiddir. Həm paytaxtda, həm də regionlarda bu paketlərin qiyməti təxminən 3 lari artırılacaq.

• Tbilisi–Mumbay–Tbilisi istiqamətində birbaşa uçuşların avqustun 2-dən başlaması planlaşdırılır.

• Avqustun 1-dən etibarən Tbilisidə zonal-saatlıq parkinq üçün əlavə dayanacaq yerləri ayrılacaq. Belə ki, bu tarixdən etibarən zonal-saatlıq parkinq sistemi Mtatsminda rayonu, Vazisubani qəsəbəsi, Didube rayonu, Baqebi qəsəbəsinin müəyyən ünvanlarında və Beri Qabriel Salos prospektində tətbiq ediləcək.

## GÜRCÜSTANA BUĞDA İDXALININ REKORD SƏVİYYƏYƏ ÇATMASININ SƏBƏBİ AÇIQLANIB



***Gürcüstanda buğda məhsulunun yığımı bir ay gecikdiyindən, yerli buğda idxalı əvəzləyə bilmədi.***

Bu barədə Gürcüstan Buğda və Un İstehsalçıları Assosiasiyasının icraçı direktoru Levan Silaqava bildirib.

Qeyd edək ki, 2025-ci ilin ilk yarısında Gürcüstana 47.88 milyon dollar dəyərində, ümumilikdə 184 118 ton buğda və meslin (qarışıq buğda) idxal edilib. Bu, son yeddi ilin ən yüksək göstəricisidir. Sonuncu dəfə 2018-ci ildə buğda idxalı 53.25 milyon dollar dəyərində (271 798 ton) olub.

Yalnız illik müqayisədə buğda idxalı 74% artıb. 2024-cü ilin ilk yarısında Gürcüstana 27.57 milyon dollar (114 291 ton) dəyərində buğda gətirilmişdi.

Silaqavanın sözlərinə görə, bu il davamlı yağışlar buğda yığımının təxminən bir ay gecikməsinə səbəb olub:

*"Keçən il bu vaxt məhsul artıq yığılmışdı, bu il isə proses hələ də davam edir. Yerli un kombinatları, quşçuluq və heyvandarlıq sahələri keçən il artıq yerli buğda alırdı. Bu il isə məhsul gecikdiyindən yerli buğda idxalın yerini tuta bilmədi və bu da idxalın artmasına səbəb oldu."*

O əlavə edib ki, buğda idxalının artmasının digər səbəbi quşçuluq və heyvandarlıq sahələrində tələbatın artması ola bilər. Silaqava bildirir ki, bu sahələrdə buğdaya üstünlük verilir, çünki buğdanın qiyməti qarğıdalıya nisbətən daha ucuzdur.

*"İkinci faktor yemlik buğda ilə bağlı ola bilər. Hazırda buğda qarğıdalıdan ucuzdur və bu da qeyri-ərzaq təyinatlı buğdaya, xüsusilə də quşçuluq və heyvandarlıq sektorunda tələbatın artmasına səbəb olub. Gömrükdə isə bütün buğda növləri eyni kodla rəsmiləşdirilir - istər ərzaqlıq, istərsə də yemlik olsun."*

Silaqava ümid edir ki, yerli məhsulun tam yığılmasından sonra idxal balanslaşacaq və göstəricilər normallaşacaq.

### XƏBƏRDARLIQ

## GÜRCÜSTANIN ƏTRAF MÜHİTİN MÜHAFİZƏSİ NAZİRLİYİ VƏTƏNDAŞLARA MEŞƏ YANĞINLARI İLƏ BAĞLI XƏBƏRDAR EDİR

***Gürcüstanın Ətraf Mühit və Kənd Təsərrüfatı Nazirliyi artan hava temperaturu fonunda meşə yanğınlarının riskinin yüksəldiyi barədə əhaliyə xəbərdarlıq edir.***

Qurum vətəndaşlara meşələrdə hərəkət zamanı xüsusi ehtiyatlılıq göstərməyə və mövcud qadağalara əməl etməyə çağırır.

Gürcüstanda artıq alp zonalarda bir neçə kiçik yanğın qeydə alınıb. Bu hallara Fövqəladə Halların İdarəetmə Xidməti və regional meşə təsərrüfatı əməkdaşları tərəfindən operativ şəkildə müdaxilə edilərək yanğınlar lokallaşdırılıb.

Nazirlik bir daha xatırladır ki, meşə ərazilərində od qalamaq müəyyən yerlər istisna olmaqla qadağandır. Qadağan olunan ərazilərə aşağıdakılar daxildir:

Ağacların budaqları altında;
İynəyarpaqlı gənc meşələrdə;
Keçmiş yanğın sahələrində;
Zədələnmiş meşə hissələrində; (külək və ya fırtına nəticəsində)
Təmizlənməmiş meşə kənarlarında;
Daşınmamış odun materiallarının saxlanıldığı yerlərdə;
Torf və qurumuş otla örtülü sahələrdə;

Qalan ərazilərdə isə odun yalnız əvvəlcədən hazırlanmış təhlükəsiz sahədə qaladılması icazəlidir. Bu zaman odun ətrafında 1,5 metr radiusda tezalışan materiallardan (saman, quru ot, yarpaq, budaq və s.) tam təmizlənməsi tələb olunur.

Nazirlik bildirir ki, Gürcüstanın İnzibati Xətalar Məcəlləsinə əsasən, meşə yanğın təhlükəsizliyi qaydalarının pozulması hallarında:

Yanğın nəticəsində meşənin zədələnməsi və ya məhv edilməsi 300-500 lari cərimə ilə cəzalandırılır;

Meşədə səhlənkarlıqdan baş verən yanğın isə 4 ildən 8 ilədək azadlıqdan məhrumetmə ilə nəticələnə bilər.

Qurum əhalini məsuliyyətli davranmağa və meşə ərazilərində ehtiyatlı olmağa çağırır.

## ALGETİ MİLLİ PARKINDA QAFQAZ MARALLARININ ARTIRILMASI PROSESİNƏ BAŞLANILIB

***Ətraf Mühitin Mühafizəsi və Kənd Təsərrüfatı Nazirliyinin Vəhşi Təbiət üzrə Milli Agentliyinin təşəbbüsü ilə, "Növlərin Bərpası üzrə Milli Plan" çərçivəsində Algeti Milli Parkında nəcib maralın artırılması təsərrüfatı fəaliyyətə başlayıb.***



Tədbirdə Parlamentin sədri Şalva Papuaşvili, Ətraf Mühitin Mühafizəsi və Kənd Təsərrüfatı naziri Davit Sonqulaşvili və digər hökumət nümayəndələri iştirak ediblər.

Şalva Papuaşvili bildirib ki, müstəqillik dövründə ilk dəfə olaraq bu cür genişmiqyaslı proqram həyata keçirilir. Proqram çərçivəsində Algeti Milli Parkının ərazisində Qırmızı Kitaba daxil edilmiş Qafqaz maralının populyasiyasının bərpası başlanır. Nazirlik bu cür proqramları digər milli parklarda da həyata keçirməyi planlaşdırır.

Tədbir zamanı Tbilisi zooparkında artırılan 7 nəcib maral Algeti Milli Parkının qorunan meşə sahəsində azadlığa buraxılıb. Proqramın ilk mərhələsində maralların sayı 15-ə çatdırılacaq.

Qafqazda ən böyük nəcib maralartırma təsərrüfatı olan bu layihə 60 hektarlıq ərazini əhatə edir və müasir monitorinq sistemləri ilə təchiz olunub.

## Sitat guşəsi



"Hamısının xarici aktorlarla əlaqəsi var: ya maliyyə dəstəyi ilə, ya ideoloji təsirlərlə, ya da birbaşa əlaqələrlə. Heç kim sizə elə bir insan göstərə bilməz ki, o, tam müstəqil şəkildə Gürcüstanın daxili ictimai tələbatından doğaraq bir təşkilat yaratsın və problemləri görüb hakimiyyətə qarşı çıxış etsin. Belə bir nümunə yoxdur".

**Mixeil Kavelaşvili,**
**Gürcüstanın Prezidenti.**



"Mən qərara gəldim ki, Fransa Yaxın Şərqdə ədalətli və davamlı sülhə dair tarixi bağlılığına sadiq qalaraq Fələstin dövlətini tanıyacaq. Bu təntənəli bəyanatı sentyabrda BMT-nin Baş Assambleyasında verəcəyəm".

**Emmanuel Makron,**
**Fransanın Prezidenti.**



"Bu ölkədə dövlət maraqlarına qarşı çıxan heç kim cəzasız qalmayacaq. Korrupsiya da dövlət təhlükəsizliyinin tərkib hissəsidir. İndulgensiya (güzəşt) heç kəsə verilməyəcək – istər adı, istər soyadı kim olur-olsun. Vəzifəyə gələnlər bilməlidir ki, bu imtiyaz deyil, böyük məsuliyyətdir və bu yükü daşıya bilməyənlər özləri bu yükdən imtina etməlidirlər".

**Tengiz Şarmanaşvili,**
**"Gürcü Arzusu" Partiyasının deputatı.**



"İsrailin məhvinə çağırış edən və bu ideyanı bayraq edən Xamenei kimi diktator mövcudluğunu davam etdirə bilməz".

**İsrael Katz,**
**İsrailin müdafiə naziri.**



"Əvvəlcə mövcud problemlər həll olunmalıdır və xüsusi hərbi əməliyyatın qarşısına qoyulmuş vəzifələrin icrası qeydə alınmalıdır. Biz bu məqsədə siyasi və diplomatik yollarla çatmağı üstün tutardıq, lakin bu alətlərdən istifadə mümkün olmayanda, əməliyyat davam etdirildi. Çünki həm Ukrayna, həm də Qərb tərəfi dialoqla bağlı bütün təklifləri rədd etdi".

**Dmitri Peskov,**
**Rusiya Prezidentinin mətbuat katibi.**



"Ursula fon der Lyayenlə Donald Tramp arasında bağlanmış ticarət müqaviləsi siyasi, iqtisadi və əxlaqi fiaskodur".

**Marin Le Pen,**
**Fransanın "Milli Cəbhə" partiyasının parlament fraksiyasının lideri.**

## REGİON XƏBƏRLƏRİ

### Rustavi: QUBERNİYADA BƏLƏDİYYƏLƏRDƏ SU TƏCHİZATI VƏ KANALİZASİYA SAHƏSİNDƏ MÖVCUD PROBLEMLƏR MÜZAKİRƏ OLUNUB



***Kvemo Kartli bələdiyyələrində su təchizatı və kanalizasiya sahəsində mövcud problemlər Gürcüstanın İnfrastruktur Nazirliyinin "Birləşmiş Su Təchizatı Şirkəti"nin nümayəndələri ilə keçirilən görüşdə müzakirə edilib.***

Görüş Dövlət müvəkkilinin Administrasiyasında (Quberniyada) baş tutub.

Dövlət Nümayəndəsinin birinci müavini İlia Calağania şirkətin direktoru David Kvinikadze və yerli özünüidarəetmə orqanlarının nümayəndələri ilə birlikdə bələdiyyələrdə su təchizatı və kanalizasiya sistemlərinin mövcud vəziyyəti və gələcək planlar barədə danışıb.

Yüksək keyfiyyətli su təchizatı və kanalizasiya sistemlərinin təmin edilməsi üçün atılmalı olan addımlar müzakirə olunub.

Xüsusi diqqət Tetritskaro bələdiyyəsidə su təchizatı sahəsində mövcud problemlərə yönəldilib.

Bildirilib ki, bələdiyyənin 15 kəndində nasos stansiyalarının elektrik təchizatında yaranmış nasazlıqlar səbəbindən əhaliyə su fasilələrlə verilir.

Tərəflər texniki çətinliklərin səbəbləri və onların həlli yolları barədə müzakirələr aparıblar. Su təchizatı sisteminin fəaliyyətinin yaxşılaşdırılmasına və problemin mərhələli şəkildə aradan qaldırılmasına kömək edəcək konkret fəaliyyət planı müəyyən olunub.

### Marneuli: BORÇALI XALÇAÇILIQ SƏNƏTİNƏ HƏSR OLUNMUŞ SƏRGİ KEÇİRİLİB

***Marneuli İctimai Kitabxanasının həyətində qədim və unikal sənət nümunələrimizdən biri olan Borçalı xalçaçılıq sənətinə həsr olunmuş növbəti sərgi təşkil edilib.***



Sərgidə yerli xalçaçılar, sənətsevərlər və müxtəlif mədəniyyət nümayəndələri iştirak ediblər.

Sərgi zamanı Marneuli Mədəniyyət Mərkəzinin nəzdində fəaliyyət göstərən xalçaçılıq studiyasının üzvləri tərəfindən toxunmuş qədim Borçalı xalçaları və digər əl işləri nümayiş olunub. Tədbirdə, həmçinin xalça toxuma texnikaları, yun əyirmə və boyama prosesləri də əyani şəkildə təqdim edilib.

### Bolnisi: QƏHRƏMANIN XATİRƏSİ ANILIB



***Bolnisi bələdiyyəsinin meri vəzifəsini icra edən Buba Qobecişvili Qudauri yaxınlığında faciəvi şəkildə həlak olmuş Qiorqi Marqianinin xatirəsini ehtiramla yad edib.***

Buba Qobecişvili yerli özünüidarəetmə orqanlarının nümayəndələri ilə birlikdə Qiorqi Marqianinin Tandzia kəndindəki məzarı önünə əklil qoyub.

Bildirirk ki, 29 iyul 2022-ci ildə Sərhəd Polisinin helikopteri Qudauri yaxınlığında xilasetmə əməliyyatı zamanı qəzaya uğrayıb və göyərtəsində olan 8 nəfərin hamısı həlak olub. Onların arasında Daxili İşlər Nazirliyinin 1-ci dərəcəli medalı - "Hərbi xidmətdə fərqlənməyə görə" medalı ilə təltif edilmiş Daxili İşlər Nazirliyinin Fövqəladə Halların İdarə Edilməsi Xidmətinin xilasedicisi Qiorqi Marqiani də olub.

## BEYNƏLXALQ HƏYAT

### ABŞ İLƏ Aİ RAZILIĞA GƏLİB



***ABŞ və Avropa İttifaqı yeni ticarət sazişi imzalayıb.***

ABŞ və Avropa İttifaqı arasında yeni ticarət sazişi razılaşdırılıb. Saziş Şotlandiyada ABŞ Prezidenti Donald Tramp və Avropa Komissiyasının sədri Ursula fon der Lyayenin görüşü zamanı elan edilib.

Yeni razılaşmaya əsasən, ABŞ Avropa İttifaqından idxal olunan məhsullara 15 faiz tarif tətbiq edəcək. Əvəzində, Aİ ABŞ-dən 600-750 milyard dollar dəyərində enerji məhsulları almağı və əlavə investisiyalar qoymağı öhdəsinə götürüb.

Donald Tramp sazişi "hər kəs üçün yaxşı və ədalətli razılaşma" adlandırıb. Ursula fon der Lyayen isə bu razılaşmanın Transatlantik ticarət münasibətlərinin sabitləşdirilməsi üçün mühüm addım olduğunu bildirib.

### TRAMP: "İRAN ÇOX AĞIR ZƏRBƏ ALDI VƏ BU, ƏDALƏTLİDİR"



***İran ciddi zərbə aldı və bu, tamamilə ədalətlidir.***

Bunu ABŞ prezidenti Donald Tramp bildirib.

Onun sözlərinə görə Vaşinqton Tehranın nüvə silahına sahib olmasına imkan verməyəcək.

Tramp əlavə edib ki, rəsmi Tehran son yaşananlardan sonra da uranı zənginləşdirmək niyyətindən əl çəkməyib:

*"Onlar hələ də uranı zənginləşdirməkdən danışırlar. Bunu kim edər? Təzəlikcə dəhşətli bir vəziyyətdən çıxıblar, amma yenə deyirlər ki, davam etmək istəyirlər. Belə bir şey söyləmək üçün nə qədər axmaq olmaq lazımdır? Biz buna imkan verməyəcəyik"*, - deyə Ağ Ev rəhbəri vurğulayıb.

### GÜRCÜSTANDA ÇOXMİLLƏTLİ "AGİLE SPİRİT" HƏRBİ TƏLİMİ BAŞLAYIB

***Gürcüstan on ikinci dəfədir ki, çoxmillətli "Agile Spirit" hərbi təliminə ev sahibliyi edir.***



İyulun 25-də Krtsanisidəki NATO - Gürcüstan Birgə Təlim və Qiymətləndirmə Mərkəzində (JTEC) təlimin rəsmi açılışı olub.

Gürcüstan Müdafiə Nazirliyinin məlumatına görə, açılış mərasimində çıxış edən şəxslər beynəlxalq təlimin əhəmiyyətindən danışıb, iştirakçılara uğurlar arzulayıblar.

Gürcüstanda keçirilən beynəlxalq təlimə Gürcüstanın Qərb Müdafiə Qüvvələrinin komandanı, briqada generalı Koba Qriqolia və ABŞ-nin Corcia ştatının Milli Qvardiyasının nümayəndəsi polkovnik Uilyam Koks birgə rəhbərlik edirlər.

Təlimin açılış mərasimində Gürcüstan Müdafiə Qüvvələrinin nümayəndələri, Gürcüstanda akkreditə olunmuş hərbi attaşelər, NATO Əlaqə Bürosunun, NATO-Gürcüstan Əhəmiyyətli Paketi (SNGP) Əsas Qrupunun, ABŞ səfirliyinin Müdafiə Əməkdaşlığı Ofisinin (ODC) və Avropa İttifaqının Monitorinq Missiyasının nümayəndələri iştirak ediblər.

"Agile Spirit 2025" regionun iki ölkəsində - Gürcüstan və Türkiyədə keçirilir ki, bu da regional əməkdaşlığın möhkəmlənməsinə töhfə verir. Təlim iyulun 21-də Türkiyənin Adana vilayəti yaxınlığında ABŞ - Türkiyə birgə hava-desant əməliyyatı ilə başlayıb.

"Agile Spirit 2025"də Gürcüstan, ABŞ və Türkiyə müdafiə qüvvələrinin nümayəndələri ilə yanaşı, daha səkkiz ölkənin hərbi qulluqçuları iştirak edir; Təlimdə iki çoxmillətli bölmə də iştirak edir; Gürcüstan və Türkiyənin dövlət nümayəndələri təlimi müşahidə edəcəklər.

### İSTANBULDA RUSİYA VƏ UKRAYNA DANIŞIQLARININ ÜÇÜNCÜ RAUNDU BAŞA ÇATIB

***İstanbul danışıqlarının üçüncü raundunda Ukrayna tərəfi avqustun sonuna qədər Vladimir Putin və Volodimir Zelenski arasında görüş keçirməyi təklif edib.***




Bunu Ukrayna nümayəndə heyətinin rəhbəri Rustem Umerov deyib.

R. Umerov İstanbulda danışıqlar başa çatdıqdan sonra jurnalistlərə deyib: *"Belə bir görüş real siyasi irəliləyişə nail ola bilər. Rusiya hazır olduğunu nümayiş etdirməlidir. Ukrayna tam və qeyd-şərtsiz atəşkəsdə israr etməkdə davam edir. Atəşkəs mülki obyektlərə və kritik infrastruktura hücumların tamamilə dayandırılmasını ehtiva etməlidir"*.

Umerovun sözlərinə görə, görüşün avqustun sonuna qədər keçirilməsi təklif olunur. İclasda Ukrayna, Rusiya, ABŞ və Türkiyə liderləri iştirak edəcək.

Rusiya nümayəndə heyətinin rəhbəri Vladimir Medinski bildirib ki, liderlər səviyyəsində görüşdən əvvəl sülh sazişinin detallarını işləyib hazırlamaq lazımdır.

## GÜRCÜSTAN MƏTBUATI NƏDƏN YAZIR?

28 iyul 2025-ci il **"SAKARTVELOS RESPUBLİKA"**

### "Orta Dəhlizin" inkişafında Gürcüstanın rolu

"Gürcü Arzusu" partiyasından yüksək səviyyəli Parlament heyəti Çin Xalq Respublikasında səfərdədir. Səfər çərçivəsində heyət iki ölkə arasındakı münasibətləri dərinləşdirmək məqsədilə strategjik görüşlər keçirib", - deyə "Gürcü Arzusu" məlumat yayıb.

Partiyanın verdiyi məlumata görə, Parlament heyəti Siyasi Şuranın üzvü, Gürcüstan Parlamentinin sədr müavini Qiorqi Volski, Siyasi Şuranın üzvü, Xarici Əlaqələr üzrə Komitənin sədri Nikoloz Samxaradze, Təhsil, Elm və Gənclik məsələləri üzrə Komitənin sədri Mariam Laşxi, İqtisadi Siyasət Komitəsinin sədri Şota Berekaşvili və Aqrar Məsələlər üzrə Komitənin sədri Qela Samxaraulidən ibarətdir.

Səfər çərçivəsində gürcü siyasətçilər Çinin hakim partiyası, Çin Xalq Konqresi, Təhsil Nazirliyinin Dillər və Təhsil Məsələri üzrə Əməkdaşlıq Mərkəzi (CLEC), Çinin Ticarət Palatası (CCTIP), Şenjen Bələdiyyə rəhbərliyi və aparıcı texnologiya şirkətləri ilə çoxşaxəli görüş keçiriblər.

Gürcüstan Avropa ilə Asiya arasındakı "Orta Dəhliz" transkontinental nəqliyyat şəbəkəsinin geostratejik əhəmiyyətə malik əsas qovşağını təmsil edən dövlət hesab olunur. 2022-ci ildən etibarən yük dövriyyəsinin 30 faizlik artımı ilə tranzit infrastrukturunun funksional əhəmiyyəti artıb. Avropa İttifaqının rəsmi mövqeyi regional əməkdaşlığın beynəlxalq əhəmiyyətini təsdiqləyir.

Çin üçün Gürcüstanla əlaqələrin gücləndirilməsi Avropa bazarlarına qoşulmaq məqsədilə alternativ mexanizmin formalaşdırılmasının tərkib hissəsidir ki, bu da şimal nəqliyyat kanallarının fəaliyyətinə məhdudiyyətlərin geosiyasi kontekstində xüsusilə aktualdır. Gürcüstanın tranzit dövlət kimi imkanları onun Avrasiya ticarətinin yeni konfiqurasiyasında sistemli əhəmiyyətini vurğulayır, burada ölkəyə çoxtərəfli azad ticarət sazişləri vasitəsilə 2,3 milyard istehlakçıdan ibarət bazara çıxış təmin edilir.

25–31 iyul 2025-ci il **"VEÇERNİY TBİLİSİ"**

### Ermənistanın baş naziri Nikol Paşinyan kilsəni "azad etməyə" çağırıb

Ermənistanın baş naziri Nikol Paşinyan bütün ermənilərin katolikosu II Qareginin (Krtiç Nersisyanın) Eçmiədzindəki iqamətgahından çıxarılması üçün hazırlıq görməyə çağırıb.

İyun ayında Paşinyan katolikosu subaylıq andını pozmaqda ittiham edərək bildirib ki, Erməni Apostol Kilsəsinin rəhbərinin övladı var və bu, kilsə qanunlarına görə, katolikos dərəcəsinə ziddir. Ermənistanın baş nazirinin sözlərinə görə, o, katolikosun şəxsi həyatı ilə bağlı məsələni təkcə ölkə lideri kimi deyil, həm də Erməni Apostol Kilsəsinə mənsub şəxs kimi ələ alır.

"Kilsə ilə nikah andını pozan Krtiç Nersisyan hələ də Müqəddəs Taxt-Tacdan imtina etməyib və bununla hər birimiz üçün müqəddəs olan Müqəddəs Eçmiədzinin Birinci Taxtını ləkələyib. Beləliklə, Krtiç Nersisyan bizləri, Erməni Apostol Kilsəsinin sadiq mənsublarını, Müqəddəs Taxt-Tacı ondan azad etməyə çağırır. Biz birlikdə bu addımı atacağıq. Hazır olun", - deyə Paşinyan öz teleqram – kanalında yazıb.

Ermənistanın baş naziri bu vəziyyəti həyat yoldaşına xəyanət edərkən yaxalanan Astronomer IT şirkətinin baş direktoru Endi Bayronun istefası ilə müqayisə edib. Nikol Paşinyan xatırladıb ki, şirkətin konsepsiyasına görə, ailə dəyərləri əsasdır.

"Arzuolunmaz, kədərli, lakin məntiqlidir ki, nikah andına əməl edə bilməyən ər - arvad boşanır. Kilsədə də eyni şey olmalıdır. Krtiç Nersisyan Veharan katolikos iqamətgahını boşaltmalıdır", - deyə Ermənistan baş naziri yazıb və Eçmiədzinin mərkəzi meydanında "böyük mənəvi görüş" üçün hazırlaşmağı əmr edib.

Erməni Apostol Kilsəsi ilə Baş nazir arasındakı münaqişə 2020-ci ildə Dağlıq Qarabağda baş verən hadisələr fonunda başlayıb. İkinci Qarabağ müharibəsində Ermənistanın məğlub olması nəticəsində bütün ermənilərin katolikosu baş naziri istefaya çağırıb və bununla da Nikol Paşinyanın siyasi rəqibinə çevrilib.

Münaqişənin yeni mərhələsi 2025-ci ilin yazının sonunda başlayıb. Həmin zaman Paşinyan bildirib ki, ölkədəki kilsələrin əksəriyyəti anbar kimi istifadə olunur və zibillə doludur. O, Erməni Apostol Kilsəsinin rəhbərini subaylıq andını pozmaqda ittiham edərək, onun istefasını tələb edib. Daha sonra həbslər baş verib. Hökumət Şirak Yeparxiyasının rəhbəri arxiyepiskop Mikail Adjapaxyanı və kilsənin müdafiəçisi, biznesmen Samvel Karapetyanı həbs edib.

## QƏZETİMİZİN XRONİKASI

**Beynəlxalq münasibət**

• NASA-nın sözçüsü Stiven Siselof bildirib ki, Beynəlxalq Kosmik Stansiyanın (BKS) istismardan çıxarılması iyulun 31-də keçiriləcək görüşdə "Roskosmos" dövlət korporasiyasının baş direktoru Dmitri Bakanov və NASA-nın inzibatçısı vəzifəsini icra edən Şon Daffi arasında keçiriləcək görüşdə müzakirə olunacaq.

• "The Times" qəzetinin verdiyi məlumata əsasən, İngiltərənin baş naziri Keir Starmer rəsmi Londonun Fələstin dövlətini tanıma planını təqdim edəcək. Məlumata görə, siyasətçinin bu addımı rəhbərlik etdiyi hakim Leyboristlər Partiyasının təzyiqlərinin artması ilə əlaqəlidir.

• Türkiyənin energetika naziri Alparslan Bayraktarın sözlərinə görə, Azərbaycan qazının Türkiyə üzərindən Suriyaya ixracı 2 avqust tarixindən başlayacaq.

• Daşkənddə keçiriləcək forum çərçivəsində Azərbaycan, Özbəkistan və Avropa ölkələrinin nümayəndələri əməkdaşlıq perspektivlərini müzakirə edəcəklər.

**Diplomatiya**

• Gürcüstan Parlamentinin sədri Şalva Papuaşvili Braziliya Federativ Respublikası Parlamentinin Milli Konqresinin Aşağı Palatasının sədri Hüqo Mota ilə görüşüb.

• Gürcüstanın Xarici İşlər naziri Maka Boçorişvili İsrail Dövlətinin Gürcüstandakı fövqəladə və səlahiyyətli səfiri Hadas Meitzad ilə vida görüşü keçirib. Xarici İşlər Nazirliyindən verilən məlumata görə, görüşdə tərəflər Gürcüstan və İsrail arasında qarşılıqlı hörmətə və çoxşaxəli əməkdaşlığa əsaslanan tarixi, yaxın dostluğu bir daha vurğulayıblar.

• Gürcüstan Parlamentinin sədri Şalva Papuaşvili Albaniya parlamentinin sədri Elisa Spiropali ilə görüşüb. Parlamentdən verilən məlumata görə, Şalva Papuaşvili Elisa Spiropalini partiyasının seçkilərdəki qələbəsi münasibətilə təbrik edib. Tərəflər Gürcüstan və Albaniya münasibətlərini müzakirə ediblər.

**İqtisadiyyat**

• Gürcüstan Milli Bankının Pul Siyasəti Komitəsi 30 iyul 2025-ci il tarixli iclasında pul siyasəti dərəcəsini (yenidən maliyyələşdirmə dərəcəsini) dəyişməyib. Pul siyasəti dərəcəsi 8,0 faizdir deyə, bankın açıqlamasında bildirilib.

• Gürcüstan Dövlət Elektrosistemi ümumi gücü 10 MVt olan beş günəş elektrik stansiyasını vahid enerji şəbəkəsinə birləşdirəcək. Günəş enerjisinin elektrik şəbəkəsinə inteqrasiyası ilk dəfə Gürcüstanda həyata keçiriləcək. Bu barədə İqtisadiyyat Nazirliyi məlumat yayıb.

**Ölkədaxili**

• "Gürcü Arzusu" Tbilisi merliyinə namizəd kimi Kaxa Kaladzeni irəli sürüb. Namizədlik partiya tərəfindən təsdiqlənib. Gürcüstanda yerli seçkilər oktyabrın 4-nə təyin edilib.

**İdman**

• Gürcüstanın Gənclərdən ibarət Paralimpiya Komandası Türkiyədə keçirilən Paralimpiya Oyunlarından qayıtdıqdan sonra Tbilisi Beynəlxalq Hava Limanında azarkeşlər tərəfindən coşqu ilə qarşılanıb. Gürcüstanın Gənclərdən ibarət Paralimpiya yığması tarixdə ilk dəfə çempionatdan vətənə dörd medal gətirib: iki qızıl, bir gümüş və bir bürünc.

**Mədəniyyət**

• İtaliyanın İntibah dövrü rəssamı Bernardino Pinturicchio (1454-1513) məktəbinə məxsus XVI əsrə aid qızıl triptix Gürcüstana qaytarılıb.

**Maraqlı**

• Professor Mişel Dougherty 350 illik bir tarixdə bu vəzifədə Böyük Britaniya Kralı Astronomu təyin edilən ilk qadın olub.

## SAĞLAMLIĞIMIZI QORUYAQ

# MEYVƏ VƏ TƏRƏVƏZLƏRİN XÜSUSİYYƏTLƏRİ, İNSAN ORQANİZMİNƏ FAYDALARI VƏ ZƏRƏRLƏRİ

*(Əvvəli ötən sayımızda)*

### Çuğundur



Elmi adı "Beta vulgaris" olan çuğundur ispanaqkimilər fəsiləsinə aid bitkidir. Bitkinin müxtəlif növləri var ki, tərəvəz kimi və şəkər istehsalı üçün istifadə olunur. Bu bitkinin əsas növləri mətbəxdə geniş istifadə edilən qırmızı çuğundur, şəkər istehsalı üçün becərilən şəkər çuğunduru və heyvan yemi kimi istifadə edilən yem çuğundurudur.

Qədim zamanlarda bəşər yabanı çuğunduru istehlak edib. Günümüzdə çuğundurun yabanı növü İranda, Aralıq dənizi, Qara və Xəzər dənizlərinin sahillərində, həmçinin Hindistan və Çində mövcuddur. Eramızdan 2000 il əvvəl çuğundur qədim İranda tanınıb, lakin mübahisə və dedi-qodu simvolu hesab edildiyi üçün sevilməyib. Eyni zamanda yarpaqlı müalicəvi bitki kimi istifadə olunub. İranlılardan fərqli olaraq, qədim romalılar çuğunduru sevimli yeməklər siyahısına daxil edərək, təkcə köklərindən yox, yarpaqlarından da mətbəxdə istifadə ediblər. 16-17-ci əsrlərdə çuğundur mətbəx və heyvan yemi növlərinə ayrılıb. 18-ci əsrdə yem çuğundurunun hibrid növlərindən şəkər çuğunduru yaradılıb. 19-cu əsrin sonu və 20-ci əsrdə məhsul bütün qitələrə yayılıb.

Günümüzdə dünya mətbəxində və sənayesində çuğundurdan geniş istifadə edilir. Bu tərəvəzdən müxtəlif salatlar, şorbalar və turşu hazırlanır, dadlı şirə əldə edilir, qida və tekstil sənayesində təbii boya kimi istifadə edilir.

**Çuğundur vitamin və minerallarla olduqca zəngindir və buna görə də insan orqanizmi üçün faydalı xüsusiyyətlərə malikdir.** Çuğundurun tərkibində A, B1, B2, B6, C vitaminləri, fol turşusu, kalium, dəmir, maqnezium, kalsium kimi minerallar və betasianin kimi antioksidantlar var. Bu səbəblə sözügedən tərəvəz qan dövranını tənzimləyir, damarları genişlədir, ürək və damar xəstəlikləri riskini azaldır. Qırmızı qan hüceyrələrinin yaranması üçün əla vasitə olan çuğundur, qanazlığının (anemiyanın) qarşısını alır. Bitki toksinlərin bədəndən çıxarılmasını sürətləndirir və qaraciyərin fəaliyyətini yaxşılaşdırır. Eləcə də çuğundur həzm sisteminə faydalı təsir göstərir, immuniteti gücləndirir və beyinə qan axınını artıraraq yaddaşı və diqqəti gücləndirir.

**Amma çuğundur müəyyən hallarda insan orqanizmi üçün zərərli xüsusiyyətlərə də malikdir.** Çuğundur oksalat adlı maddə ilə zəngin olduğuna görə böyrək daşı olanlar və ya bu riski daşıyanlar üçün zərərlidir. Çuğundurun tərkibində şəkər olduğu üçün şəkərli diabeti olanlar bu tərəvəzdən olduqca ehtiyatlı istifadə etməlidirlər. Bu tərəvəz bəzi insanlarda nadir hallarda olsa da, dəridə qaşınma, səpkilər və ya nəfəs darlığına səbəb ola bilər.

# DİLİMİZİ DAHA YAXŞI ÖYRƏNƏK!

*(Əvvəli ötən sayımızda)*




Qəzetimizin 2 aprel 2021-ci il tarixli 23-24 saylı buraxlışında "Hörmətli oxucular!" sərlövhəli yazının davamı olaraq Azərbaycan dilinin zənginliyini, şirinliyini duymaq, bilmək, onu təbliğ etmək və geniş oxucu kütləsini maarifləndirmək üçün gündəlik danışıq vaxtı işlədilən və az işlədilən sözlərin mənaca təhlilinin oxuculara təqdimatını davam etdiririk:

**HƏRƏKƏSİZ** *sif. dilç.* Hərəkəsi olmayan, hərəkə ilə oxunmayan.

**HƏRƏKƏT** *is. [ər.]* 1. Bir şeyin və ya onun hissələrinin sabit bir nöqtəyə görə öz yerini və ya vəziyyətini dəyişməsi; hərəkətsizliyin, sükunətin ziddi olan vəziyyət. *Ritmik hərəkət. Dairəvi hərəkət.*

*Cismin hərəkəti onun hissələrinin hərəkətilə təyin olunur.* "Nəzəri mexanikanın əsasları".

2. *fəls.* Materiyanın varlıq forması, onun ayrılmaz xassəsi; maddi aləmin fasiləsiz dəyişmə və inkişaf prosesi.

*Milyon il, milyard il bir yol, bir cığır,*
*Nə geriyə dönür, nə sona çıxır,*
*Hərəkət əbədi,*
*Sürət əbədi.*

M. Araz.

3. Yola düşmə, hər hansı bir istiqamətə getmə; yürüş. *"*

*Yaşasın!" bağırtısı,*
*Qopunca hər bir yandan;*
*Hərəkət əmri verdi,*
*Lələkli baş komandan.*

Ə. Cavad.

**HƏRƏM** *is. [ər.] köhn.* 1. Arvad, zövcə. [Çopo:] *Qəbir torpaqla örtülmədən əvvəl xaqan, onun hərəmi və dayə gəldi.*

Çəmənzəminli.

2. Hərəmxana qadınlarından hər biri. *Hərəmxanada cümlə hərəmlər şahın fərmayişi ilə otağa hazır olub müntəzir idilər.*

M. F. Axundzadə

3. Bax **hərəmxana.** // Keçmişdə müsəlman evlərində qadınlara məxsus hissə, otaqlar.

**HƏRƏMAĞASI, HƏRƏMBAŞI** *is. köhn.* Hərəmxanada xidmət edən, oraya girib-çıxmağa ixtiyarı olan saray xidmətçisi. [Cavan] *hərəmbaşının rəyinin ziddinə olaraq, saraydakı qulluqçu qızlardan biri ilə sevişmişdi.*

P. Makulu.

**HƏRƏMXANA** *is. [ər.* hərəm və *fars.* ...xanə] *köhn.* Sarayda hərəmlərin (2-ci mənada) yaşadığı otaqlar, bina.

*Şah Səlmaxatuna işarə etdi ki, hərəmxanaya getsin və xacəyə buyurdu ki: – Mirzə Sədrəddini çağır, gəlsin.*

M. F. Axundzadə.

**HƏRF** *is. [ər.]* 1. Hər hansı bir dilin əlifbasında adətən müəyyən səsə uyğun gələn yazı işarəsi; əlifbanı təşkil edən işarələrdən hər biri. *"B" hərfi. Kiçik hərf.*

*İsmin üç hərf ilə eylərəm aşkar,*
*Biri "kaf"dı, biri "lam"dı, biri – "sad".*

Aşıq Ələsgər.

2. *məc.* Bir şeyin mənasının, məzmununun əksinə olaraq onun xarici, formal cəhəti. *Tərcümədə mətnin hərfini deyil, ruhunu verməyə çalışmaq lazımdır.*

3. Söz, kəlam, kəlmə.

*Xoşuna getməyir şair könlümün,*
*Onun hər yalançı hərfi, ey qadın!*

S. Rüstəm.

**HƏRGAH** *[fars.]* Xəbəri felin şərt şəkli ilə ifadə olunan budaq cümləsini baş cümləyə bağlayan və şərti qüvvətləndirən bağlayıcı – əgər.

*Hərgah vaxtın olsa, axşam bizə gəl.* [Süleyman:] *Hərgah, Allah eləməmiş, Əsgər pis adam olsa idi, mən sənin qızını ona istərdimmi?*

Ü. Hacıbəyov.

**HƏRGİZ** *zərf [fars.]* Əsla, qətiyyən, heç vaxt. [Tarverdi:] *Ağa, vallah, mən bundan əvvəl heç quldurluğa getməmişdim, daxi bundan sonra hərgiz getmənəm.*

M. F. Axundzadə.

**HƏRİF** *is. [ər.]* 1. Gözə tanış gəlməyən, şübhəli görünən tip; subyekt. *Bu hərif kimdir? O hərif haradan gəldi?*

[Mehralı:] *Müxtəsər, bankdan bizim çeklərlə pul alanda herifləri qamarlayıblar.*

S. Rəhman.

2. *məc.* Bic, çoxbilmiş, tez başa düşən, tez duyan, ayıq. *Yaman hərifdir. Bəhram hərif olduğu üçün Qulunun bu mehribanlığına əhəmiyyət verməndi və bu nəvazişdən sonra əməli bir təklif olacağını gözlədi.*

Çəmənzəminli.

3. Yüngül söyüş məqamında işlədilir. [Altunbay:] *Sən də, Toğrul, xristian hərif, yaxın gəl!*

C. Cabbarlı.

4. *dan.* Oyun yoldaşı; oyundaş. *Hərif uduzdu.*

*Uşaqlardan biri o birilərinə him ilə bildirirdi ki, gələn hərif xamdır.*

H. Sarabski.

5. *klas.* Sirdaş, yoldaş, munis.

*Bildim, qəmini sənin, ki çoxdur;*
*Qəm çəkməyə bir hərif yoxdur.*

Füzuli.

**HƏRİS** *sif.* və *zərf [ər.]* Bir şeyə həddindən artıq can atan, ona aludə olan, onun düşkünü olan, təəşşüqü olan; gözüdoymaz, düşkün.

[Bayram:] *Amma çibin şirniyə həris olan kimi Tarverdi Pərzadə hərisdir.*

M. F. Axundzadə.

**HƏRİSLİK** *is.* 1. Bir şeyi etməyə, yaxud öyrənməyə, bilməyə göstərilən hədsiz həvəs, meyil, maraq; aludəlik. *Dükan qabağına toplaşanların əhvalatı öyrənmək hərisliyi daha da artırdı.*

Mir Cəlal.

2. **Hərisliklə** şəklində *zərf* – acgözlüklə, ehtirasla. *Hərisliklə yemək.*

*Xosrov bəy .. yenə də vəhşi bir hərisliklə Zərrintac xanıma baxır.*

S. Rəhimov.

**HƏRKİ-HƏRKİLİK** *is.* Qayda-qanun, nizam-intizam olmadığı hal; özbaşınalıq, başlı-başınalıq, hərc-mərclik, qarışıqlıq. *Kasıb kəndçilər firqəyə yazılardılar, fəqət işlər hələ yaxşı bir nizama düşməmişdi, hərki-hərkilik idi.*

E. Sultanov.

**HƏRRAC** *is. [ər.]* Bir mülkün, şeyin ən çox pul verənə verilmək üzrə açıq satışa qoyulması; auksion, müzaidə.

*Bir yerdə ki, millətin haqqı hərrac*
*malıdır,*
*O ölkədə Vətən də, el də satılmalıdır.*

B. Vahabzadə.

■ **Hərrac bazarı** – qədimdə qul satılan bazar.

*Yerli Azərbaycan feodalının hərrac bazarından satın alınmış qulu olan Elxan Azərbaycan xalqının bütün düşmənlərini öz şəxsi düşməni adlandırır və onlara qarşı çıxır.*

M. Arif

**HƏRZƏ** *[ər.]* 1. *is.* Mənasız söz, boş söz, hədyan, söyüş.

*Bu hərzəvü hədyanlara kimlər qulaq asdı,*
*Kim verdi bu axmaq sözə qiymət, uçitellər?*

M. Ə. Sabir.

2. *sif.* Mənasız, boş, cəfəng, nalayiq.

*Zeynal özünün və evinə gələn qonaqlarının hər bir nalayiq və hərzə hərəkətlərini "yeni həyatın icabatı" deyə göstərmiş, .. Mehribandan üzr istəməklə könlünü ələ almışdı.*

S. Hüseyn.

**(Davamı var)**

**Hazırladı: Xaləddin Yolçuyev.**

# DÖVLƏT DİLİNİ ÖYRƏNMƏLİYİK!

***Hörmətli oxucular!***



Gürcüstanda yaşayan etnik azlıqların dövlətçiliyin əsaslarının möhkəmləndirilməsi, ölkənin ictimai-siyasi həyatında fəal iştirak etməsi, cəmiyyətə inteqrasiya olunmaqla onun tamhüquqlu vətəndaşı olması üçün gürcü dilini və tarixini bilmələri vətəndaşlıq borcudur. Dövlətin "Vətəndaş Bərabərliyi və İnteqrasiya üzrə 2021-2030-cu illər üçün dövlət strateji proqramı"na əsasən Gürcüstanda yaşayan etniklər 2030-cu ilədək gürcü dilini mənimsəməlidirlər. "Gürcüstan" qəzeti də yuxarıda qeyd olunanları nəzərə alaraq, bu mühüm işə öz töhfəsini vermək üçün gürcü dilini öyrənmək istəyənlərə yardım etmək məqsədilə yeni rubrika açıb. Bu rubrika altında siz gürcü dilinin əlifbasından başlayaraq dilin bütün özəllliklərinə bələd olacaqsınız.

## Gürcü əlifbası

**Gürcü əlifbası 33 hərfdən ibarətdir və aşağıdakı ardıcıllıqla düzülür.**

| Gürcü hərfləri | Azərb. hərfləri | Əlifba sırası ilə adı | Gürcü hərfləri | Azərb. hərfləri | Əlifba sırası ilə adı | Gürcü hərfləri | Azərb. hərfləri | Əlifba sırası ilə adı |
|---|---|---|---|---|---|---|---|---|
| ა | a | ან | მ | m | მან | ღ | ğ | ღან |
| ბ | b | ბან | ნ | n | ნარ | ყ | ğ* | ყარ |
| გ | q | გან | ო | o | ონ | შ | ş | შინ |
| დ | d | დონ | პ | p* | პარ | ჩ | ç | ჩინ |
| ე | e | ენ | ჟ | j | ჟან | ც | ≈ ts* | ცან |
| ვ | v | ვინ | რ | r | რაე | ძ | ≈ dz | ძილ |
| ზ | z | ზენ | ს | s | სან | წ | ≈ ts | წილ |
| თ | t | თან | ტ | t* | ტარ | ჭ | ≈ tç | ჭარ |
| ი | i | ინ | უ | u | უნ | ხ | x | ხან |
| კ | k* | კან | ფ | p | ფარ | ჯ | c | ჯან |
| ლ | l | ლას | ქ | k | ქან | ჰ | h | ჰაე |

**Qeyd: ≈ işarəsi "təxmini tələffüz"ü göstərir.**
*** işarəsi "sərt tələffüz"ü göstərir.**

Gürcü dili əlifbasında 5 sait : ა(a), ე(e), ი (i), (o) ო, უ (u) var, qalanı samit səslərdir. Gürcü dilində 8 spesifik xüsusiyyətli samit isə Azərbaycan dilində yoxdur. Onlar Azərbaycan dilində aşağdakı qaydada tələffüz olunur.

**კ - k*** (sərt tələffüz) **პ - p*** (sərt tələffüz) **ტ - t*** (sərt tələffüz)
**ყ - ğ*** (sərt tələffüz) **ც - ts *** (sərt tələffüz ) **წ ≈ ts** (təxmini tələffüz)
**ჭ ≈ tç** (təxmini tələffüz) **ძ ≈ dz** (təxmini tələffüz)

Azərbaycan dilindən fərqli olaraq, gürcü dilinin orfoqrafiyasında böyük və kiçik hərflər yoxdur. Çap və yazı hərfləri şəkil etibarı ilə eynidir. Oxunduğu kimi də yazılır.

* * *

## მსოფლიოს მოგზაურობა (Msoplios moqzauroba)

## Dünyanı gəzmək

**მსოფლიოს ნახვა უამრავი ადამიანის ოცნებაა.** (Msoplios naxva uamaravi adamianis otsnebaa.) **– Dünyanı gəzmək bir çox insanın arzusudur.**

**მოგზაურობა გვაძლევს შესაძლებლობას, გავიცნოთ სხვადასხვა კულტურა, ტრადიცია და ხალხი.** (Moqzauroba qvadzlevs şesadzleblobas, qavitsnot sxvadasxva kultura, traditsia da xalxi.) **– Səyahət bizə müxtəlif mədəniyyətləri, adət-ənənələri və insanları tanımaq imkanı verir.**

**ყოველი ქვეყანა თავის ისტორიას და უნიკალურობას ატარებს.** (Ğoveli kveğana tavis istorias da unikalurobas atarebs.) **– Hər bir ölkə öz tarixi və özünəməxsusluğu ilə fərqlənir.**

**მოგზაურობისას ვსწავლობთ ახალ ენებს, ვაგრძელებთ პიროვნულ განვითარებას და ვამდიდრებთ ჩვენს მსოფლმხედველობას.** (Moqzaurobisas vstsavlobt axal enebs, vaqrdzelebt pirvonul qanvitarebas da vamdidrebt çvens msoplmxedvelobas.) **– Səyahət zamanı yeni dillər öyrənirik, şəxsi inkişafımıza davam edirik və dünyagörüşümüzü genişləndiririk.**

**დამთრგუნველი რუტინისგან გაქცევა და ახალი გამოცდილების მიღება ცხოვრების უფრო საინტერესოს ხდის.** (Damtrqunveli rutinisqan qaktseva da axali qamotsdilebis miğeba tsxovrebis upro sainteresos xdis.) **– Darxdırıcı gündəlik həyatdan uzaqlaşmaq və yeni təcrübələr qazanmaq həyatı daha maraqlı edir.**

**მოგზაურობა არ არის მხოლოდ გართობა ეს არის სწავლა, გაზრდა და ახალი ცხოვრების აღმოჩენა.** (Moqzauroba ar aris mxolod qartoba es aris stsavla, qazrda da axali tsxovrebis ağmoçena.) **– Səyahət təkcə əyləncə deyil, bu həm də öyrənmək, böyümək və yeni həyatların kəşfidir.**

**მსოფლიოს ნახვა ადამიანს ასწავლის თავმდაბლობას, რომ ჩვენ მხოლოდ პატარა ნაწილს წარმოვადგენთ ამ დიდი და მრავალფეროვანი პლანეტის.** (Msoplios naxva adamianis astsavlis tavmdablobas, rom çven mxolod patara natsils tsarmovatqent am didi da mravalperovani planetis.) **– Dünyanı gəzmək insana təvazökarlıq öyrədir ki, biz bu böyük və rəngarəng planetin yalnız kiçik bir hissəsiyik.**

**მოგზაურობა ქმნის დაუვიწყარ მოგონებებს, რომლებიც სიცოცხლის ბოლომდე გყვება.** (Moqzauroba kmnis dauvitsğar moqonebebs, romlebits sitsotsxlis bolomde qğveba.) **– Səyahət unudulmaz xatirələr yaradır, onlar ömrünün sonuna qədər səni izləyir.**

**მოგზაურობა ადამიანს აძლევს თავისუფლების შეგრძნებას.** (Moqzauroba adamianis adzlevs tavisuplebis şeqrdznebas.) **– Səyahət insana azadlıq hissi verir.**

*Əvvəli 4 iyul tarixli sayımızda*

# AVQUST



Bizdə yayın birinci yarısı bəzən nisbətən sərin və yağışlıdır, bizim açıq göy rəngli gözəl səma bəzən tünd, boz rəngli buludlar ilə örtülür. Lakin iyul-avqust aylarında hər halda çox isti olur. Avqust bəzən elə bir bürkülü isti yaradır ki, adamın nəfəsi kəsilir, Şərqi Gürcüstanın düzənlikəri və dağların ön yamacları saralır, ot quruyur birbaşa...Doğrudur, Qərbi Gürcüstanda ətraf yerlər belə yanmır, lakin orda da ağacın yarpağına zülm edilir, güney yerlərdə parlaq yaşıllıq öz yaşıllığın itirir. Vələsliyin və şərq vələsliyinin bizim aran yerinin çayları olan düzənliklərində, xüsusən, cənub yamaclarında yarpaqları saralıb. Doğrudur, qurumamışdır, lakin həyat nişanəsi artıq itmişdir. Cənub yamaclarında ot bəzi yerlərdə bozarır, balaca bataqlıqlar quruyur, hava buxarla ağılaşır.

Doğrudur, gündüz qısalır və gecə uzanır, lakin çöldə işləyən günün başa çatmadığını hesab edir.

Axşam tez düşür və ara verməyən cırıltı səsi eşidilir. Yaşıl ağac qurbağasının ona yedəklənən qurultusu eşidilir. Səma bəzən ulduzlarla dolur. Süd yolunun uzun yolu bütün səma boyu uzanır. Şir və tərəzi bürcü çox aşkarcasına görünür. Şəfəq zamanı isə Xarispariya ( Xaç oğrusu) parıldayır. ·

Turac və kəklik dağın yamaclarındakı kolluqlarda, qırqovul calanın kollarında, kolların və ot bitkilərinin bir-birinə sarıldığı saplaqda qaqqıldaşırlar və fərələşmiş balalarını uzağa buraxmırlar; Ananın qayğıkeşliyi, göz-qulaq olması yenə də lazımdır. Yoxsa, kim bilir, hələ də yenə brakonyer dolaşır. Qaranquşlar və sığırçınlar çox hallarda dəstə-dəstə toplaşırlar. Axı, avqustun sonu uçmaq üçün qanad açmış olacaqlar.

Çöldə toroğayın aravermәyən cəh-cəhi eşidilir. Əvəzində traktor uğuldayır, taxıl və arpa yeri şumlanır, samanı tayalara vururlar. Çöldə bulun-bulun edilmiş otu fermaların yanına gətirirlər və nəhəng tayalar qururlar. Yaşıl otu və qalmış silosluq qarğıdalını isə silos edirlər.

Dağ və aranın düzənliklər sahəsi hələ yenə də bozdur. Az-maz nəsə hər halda çiçəkləyir: Torpağa sərilmiş zəncirotu, deмək olar ki, yarpaqsız kasnı, süngər, tikanlı yabanı eşşək qanqalı, süsən, peyğəmbərçiçəyi.

Kombaynlar aranda taxıl biçinini və yığımını bitirdilər. Dağda isə, hamar düzənliklərdə yenə uğuldayırlar. Əkinçi-səpinçilərin hələ də aranda heç də işləri əksilməyib, çox yerdə kərənti və oraq ilə biçilmiş taxılı xırmana gətiriblər, kombayn ilə və taxıl döyən makina ilə döyürlər. Uzun çöllərdə günəbaxan başını əyib və kömbaynı dəvət edir, güman ki, dağda da çox tezliklə xırmanlara onun yığımının vaxtı gələcək.

Suvarmalarda qarğıdalı, bağ və bostan sudan əziyyət çəkir, buna görə də ayaqları çırmanmış kolxozçu suvarma arxının yuxarı, aşağısı ilə tüyünəndə su arpa, buğdanın hoyuna yetəndə belə hallar tez-tez olur.



Bağlarda tədricən meyvə ağaclarının budaqları yerə əyiləndə bar yetişir, şirə ilə şirinliklə dolur.

Ləzzətli meyvələr - faraş armud, şaftalı, min cür gavalı yığılır. Gavalı, cır gavalı, göyəm toplanılır. Qaysı və ərik, gilas və gilənar artıq çəkilib, daha yoxdur. Görüləsi işlər axıra kimi görülüb. Üzüm bağında son dəfə olaraq kükürd püskürdürlər. Toxalanmamış üzüm bağında otu biçirlər, kultivasiyadan keçirirlər və ya toxalayırlar. Tezliklə üzüm bağına gediş-gəliş kəsiləcək, Rtvelini-üzüm yığımını gözləyəcəklər. Kolxidada bir an da canlanma səngimir. Çay yarpağı yığılır. Çay kolu axı, avqust ayında da böyüyür. Yeni zoğlara bürünür. Buna görə də avqust ayı çay yarpağının həlledici aydır. Mineral kübrələrin ikinci dozasının iyulda apara bilmədikləri yeri avqust ayında doldurmalıdırlar. Ziyanvericilərə qarşı mübarizə aparırlar, toxalayırlar, kultivasiya işi aparırlar. Sitrus meyvələri bağlarında isə limonun ətri əvəzinə kükürdün qoxusu gəlir. Yenə də qırmızı və gümüşvari gənəyə qarşı mübarizə aparırlar. Bəzi yerlərdə isə bağlarda yaşıl gübrə üçün yetişdirilən bitki olan sideratların səpininə zəmin hazırlayırlar.

Yüksək dağlıq yerlərdə bizim heyvandarlıq rayonlarımızda avqustun sonunda taxıl biçini başlayır. Doğrudur, azdır, lakin aza da qulluq lazımdır. Biçənəklərdən kolxoz fermalarına qədər gətirirlər. Tayalara vururlar. Çox rütubətli çəmənliklər indi biçilir, əgər bu otda cil, qamış və aşağı dəyərli bitki çoxdursa, onda belə otu silosa basırlar. Və ya da quruyandan sonra ayrıca bulun edirlər. Ota qarışdırmırlar ki, qışda mal- qaranın altına tökmək üçün istifadə etsinər. Çox yerdə tədarüklü ferma müdiri otların toxumunu yığır, əlbəttə, heyvanı yemləmək üçün böyük əhəmiyyəti olan otların. Bunlar - qırtıc, çoban toppuzu, çəmən yulafı, müxtəlif cür yonca: qırmızı, ağ, sarı, çal yonca və sairdir.

Məktəbin yeniyetmə naturalistləri və təbiəti mühafizə dərnəkləri bu zaman kolxoza böyük yardım göstərirlər, lakin xüsusi yardımı məhz ot toxumunun toplanılması işində göstərə bilirlər. Onlar ekskursiyalar zamanı yem otunun harda olub, olmamasını və yazın müşahidəsinin bunun üçün istifadə olunmasını artıq qeyd etdilər. Bundan başqa hansı bitkinin, həşəratın və ya başqa heyvanın yayın istisindən sağ qaldığını diqqətlə müşahidə edirlər.

Avqust ayında qoyun soğulur. Quzunun qırxılmasına başlanılır, ondan sonra qalan qoyunlar qırxılır. Mələrti, böyürtü səsi eşidilir. Binədə vurnuxmadır, pendir və yunu arana göndərirlər; görünür, səhər-səhər arana hazırlaşırlar. Artıq soyuqdur.



Avqustda geniş vüsət alan hazırlıq onun üçündür ki, payızda üzüm və meyvənin bərəkəti barı vaxtında yerbəyer edilsin.

**Niko Ketsxoveli,**

**Tərcümə etdi: Mirzə Məmmədoğlu**

*HEKAYƏ*

# ƏLİL ARABASI

Səhərin erkən saatları idi. Qış günəşi ağır-ağır buludların arasından çıxmağa çalışırdı. Küçədə səssizlik hökm sürürdü, yalnız uzaqdan avtomobillərin səsi gəlirdi. Terapiya mərkəzinin pəncərələrindən süzülən zəif günəş şüaları balaca otağı yumşaq bir işıqla bəzəyirdi. Bu gün burada xüsusi bir görüş baş tutacaqdı. Beş nəfər-hər biri fərqli hekayələrə sahib olan, lakin ortaq bir məqamda birləşən insanlar terapiya otağında toplaşmışdı. Onların hər biri əlil arabasında idi və bu günkü söhbətin mövzusu da məhz bu idi: "Əlil Arabası". Otaq sadə, amma rahat idi. Divarlarda "Həyat irəliyə baxanlar üçündür", "Çətinliklər bizi böyüdür" kimi motivasiyaedici ifadələr yazılmışdı. Divardakı böyük saat həzin-həzin taqqıldayırdı.

Terapevt, gülümsəyərək iştirakçıları nəzərdən keçirib, sözə başladı:

- Bu günkü mövzumuz çox özəldir. Əlil arabası hər biriniz üçün çox vacib avadanlıqdır və həyatınızın ayrılmaz bir hissəsidir. Amma bu gün onu sadəcə bir vasitə kimi yox, həyatınızda oynadığı rol baxımından müzakirə edəcəyik. Əlil arabası sizin üçün nə deməkdir ? Hansı hisslər oyadır? Həyatınızı necə dəyişib ?

Otaqda qısa bir sükut oldu. Hər kəs düşüncələrə dalmışdı. İlk olaraq Elgün söz aldı. O, 32 yaşında, hündürboylu, geniş əzələli bir gənc idi. Daim gülümsəsə də, gözlərində dərin bir kədər gizlənirdi. Arxaya söykənib, arabasının tutacaqlarına toxundu və aramla danışmağa başladı:

- Bu arabaya baxanda qarışıq hisslər keçirirəm. Bir tərəfdən, bu mənim azadlığımı simvolizə edir. Onsuz heç bir yerə gedə bilmərəm. Amma bir tərəfdən də, bu mənə həbsxana kimi gəlir. İlk dəfə arabaya oturduğum günü xatırlayıram. O gün özümü qanadları sınmış quş kimi hiss etdim. Sanki həyat mənim qanadlarımı qırıb, məni bu təkərlərə məhkum etmişdi. Amma zaman keçdikcə başa düşdüm ki, bu təkərlər mənim yeni qanadlarımdır. Onlarsız mən heç bir yerə gedə bilmərəm. Bəli, bu araba mənim azadlığımı təmin edir, amma onun çərçivəsi içində yaşamağa məcburam. Mənim üçün əlil arabası azadlıq və məhdudiyyətin birləşdiyi bir yerdir.

Elgünün danışdığı sözlər otaqda dərin bir səssizlik yaratdı. Hər kəs düşüncəyə dalmışdı. Ardınca Zeynəb söz aldı. O, 29 yaşında, incə simalı bir qadın idi. Arabasının tutacaqlarını sığallayaraq danışmağa başladı:

- Mənim üçün əlil arabası həm dostdur, həm də düşmən. Dostdur, çünki onsuz həyatım daha çətin olardı. Düşməndir, çünki hər dəfə ona baxanda əlimdən alınmışları xatırlayıram. Mənim üçün bu arabaya oturmaq çox çətin idi. İlk dəfə oturanda özümü zəif, yarımçıq hiss edirdim. Amma zaman keçdikcə başa düşdüm ki, bu araba həyatımı davam etdirməyim üçün vacib bir alətdir. Onsuz heç yerə gedə bilmərəm. Bəzən təkərlərin səsi məni narahat edir, amma sonra anlayıram ki, bu mənim həyat ritmimdir. Mənim üçün əlil arabası məğlubiyyətin yox, mübarizənin simvoludur. Onunla həyatımı yenidən qurmuşam.

Sonra Rəşad danışmağa başladı. O, 50 yaşlarında, gümrah görünən bir kişi idi. Arabasını azca irəli sürərək danışmağa başladı:

- Bu təkərlər mənim tariximi daşıyır. Mən gəncliyimdə çox gəzərdim, çox qaçardım. Hər zaman hərəkətdə idim. Amma qəza baş verdi və birdən-birə hər şey dəyişdi. İlk vaxtlar arabaya nifrət edirdim. Onu qəbul etmək mənim üçün çox ağır idi. Özümü bu təkərlərin əsiri kimi hiss edirdim. Amma bir gün oğlum mənə dedi: "Ata, sən bu arabada otursan da, mənim üçün dünyanın ən güclü adamısan." O sözlər mənim həyatımı dəyişdi. O gündən sonra arabaya fərqli baxmağa başladım. Mən hələ də o qəzanı xatırlayıram, amma başa düşürəm ki, həyatım bu arabadan daha böyükdür. Əlil arabası mənim üçün həyatın davam etdiyini göstərən bir simvoldur.

Ardınca 40 yaşlarında olan Xumar danışmağa başladı. Onun səsi sakit, lakin qətiyyətli idi:

- Mənim üçün bu araba azadlıqdır. Yataq xəstəsi olarkən çox şeydən məhrum olmuşam, amma arabaya oturandan sonra həyatlmı yenidən qurdum. İnsanlar bəzən mənə yazıq kimi baxırlar. Amma mən onlara izah edirəm ki, bu araba mənim üçün məhdudiyyət deyil. Mən bu arabada oturaraq rəqs etmişəm. Mənim üçün həyat hərəkətdədir. Əgər hərəkət edə bilirəmsə, deməli yaşayıram. Mənim üçün əlil arabası çətinliklərin qarşısında dayanıb, həyatla rəqs etməyin simvoludur. Mənə görə həyatın gözəlliyi onun çətinliklərindədir. Bu araba mənə güc verdi və göstərdi ki, həyat davam edir.

Son danışan ən gənc iştirakçı İsmayıl oldu. 18 yaşı var idi. Təbəssümü və gəncliyinin enerjisi otağa işıq saçırdı. Arabası ilə yerində dairə cızıb danışmağa başladı:

- Doğulduğum andan ayaqlarımda problem olduğu üçün 5 yaşımdan əlil arabası istifadə edirəm. Mənim üçün əlil arabası hər zaman həyatımın bir hissəsi olub. Heç vaxt yerimədiyimə görə bu mənim üçün təbii bir şeydir. Məni zavallı kimi görən insanların nə düşündüyünü vecimə almıram. Mən bu arabayla saatsaz peşəsinə yiyələnmişəm, dostlar qazanmışam, hətta idmanla da məşğul olmuşam. Bu araba mənim azadlığımdır. Mənə görə əlil arabası möhtəşəm bir vasitədir. Həyatımı çətinləşdirmir, əksinə, asanlaşdırır. Mən bu arabaya minnətdaram, çunlki o, mənə özümü ifadə etməyə imkan verir.

Hər kəs danışıb bitirdikdən sonra ortalığa dərin bir sükut çökdü. Beş fərqli insan, beş fərqli hekayə, amma hamısı bir nöqtədə birləşirdi: Həyat davam edirdi, nə olursa-olsun. Əlil arabası onlar üçün həm azadlıq, həm çətinlik, həm də mübarizə simvolu idi.

Bir-neçə dəqiqəlik sükutdan sonra terapevt gülümsəyərək dedi:

- Siz hamınız çox güclü insanlarsınız. Hər biriniz həyatın çətinliklərinə sinə gərmişsiniz. Əlil arabası sizin həyatınızı dəyişib, amma siz də onu öz həyatınıza uyğunlaşdırmısınız. Bu, böyük bir gücün göstəricisidir. Gəlin, sizə günün mövzusuna aid bir şeir səsləndirim. Samir İmanovun "Mən və əlil arabam" şeirini:

Sən mənim yükümsən, mən sənin yükün.
Biri-birimizi daşıyırıq biz.
Səni aparmasam gedə bilmərəm,
Məni aparmasan gedə bilməzsən,
Qəribə təzadla yaşayırıq biz.

Sən adi bir əşya, mən canlı bədən.
Mən sənə möhtacam, sən mənə həyan.
Sən mənim stulumsan,
Sən mənim gedən ayağım-
Sən dayağımsan.
Sən mənim ömürlük yol yoldaşımsan,
Yeni bir səfərə başlayırıq biz.

Otaqdan çıxanda hər kəsin üzündə fərqli bir ifadə var idi. Onlar bəlkə də bu gün bir şeyi daha yaxşı başa düşmüşdülər, həyatın gözəlliyi ürəklərdə parlayan arzularda, güclü iradədə və mübariz olmaqda idi.



**Samir İmanov.**

# HƏFTƏNİN SEÇİLMİŞLƏRİ

## TARİXDƏ NÖVBƏTİ HƏFTƏ



**1 avqust**

• 1291— Alp dağları zonasında yerləşən üç kanton (ərazi) – Şvitz, Uri və Untervalden - Federal Xartiya imzalayıblar. Həmin xartiyaya əsasən, kantonlar hər hansı bir xarici təcavüzə qarşı bir-birlərinə hərbi yardım göstərməyi öhdələrinə götürüb. Sözügedən sənəd İsveçrə Konfederasiyasının əsasını qoyub.

• Azərbaycan Dili və Əlifbası Günüdür. Gün Azərbaycanda kiril qrafikasının latın qrafikasına əvəz olunması ilə əlaqəlidir. Azərbaycanın prezidenti Heydər Əliyevin fərmanı ilə 1 avqust tarixi Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü olaraq təyin edilib.

**2 avqust**

• E. Ə. 216 — İkinci Roma – Karfaqen (Şimali Afrikada, indiki Tunisdə yerləşən şəhər, qədim imperiyalardan biri) müharibəsinin ən böyük döyüşü baş verib. Hannibal Barkanın başçılıq etdiyi Karfaqen ordusu cənubi İtaliyada, Kann şəhəri yaxınlığında 90 000-lik Roma qoşununu məğlub edib.

• 1940—**SSRİ tərəfindən ilhaq edilən Rumıniyanın şərq ərazilərində Moldova Sovet Sosialist Respublikası yaradılıb.**

• 1990 — İraq prezidenti Səddam Hüseyn Küveyti işğal edib. İki gün ərzində İraq ordusu ölkə üzərində nəzarəti ələ alıb. İraqın bu addımı beynəlxalq təzyiqə səbəb olub. 17 yanvar 1991-ci ildə ABŞ-nin rəhbərlik etdiyi koalisiya İraqa qarşı hərbi əməliyyata başlayıb. Nəticədə 28 fevral 1991-ci ildə İraq məğlub edilib və Küveytin müstəqilliyi bərpa edilib.

**3 avqust**

• 1778 — İtaliyanın Milan şəhərində ölkənin ən məşhur və mühüm opera teatrı sayılan "La Skala" opera teatrı açılıb. Teatr binasının layihəsi məşhur italyan memar Cuzeppe Pyermarini (1734 – 1808) tərəfindən hazırlanıb.

• 1965 — **İoseb Qrişaşvili, gürcü şair, vəfat edib.**

• XIX əsrin sonundan fransız müstəmləkəsi olan Niger 1960-cı ildə müstəqilliyini bərpa edib, ona görə də bu gün ölkədə Müstəqillik Günü kimi qeyd edilir.

**4 avqust**

• 1943—**Ramiz Məlik, Azərbaycan teatr və kino aktyoru, anadan olub.**

• 1972 — Uqanda diktatoru İdi Aminin (1971 – 1979-cu illər) göstərişi ilə ölkədən hindlilərin qovulması başlayıb. Uqandadan iqtisadi fəaliyyət göstərən 55 000 hind əsilli vətəndaş qovulub.

• 1984 — Qərbi Afrika ölkəsi Yuxarı Volta bir il qabaq baş vermiş hərbi çevriliş nəticəsində hakimiyyətə gələn və sosial islahatlar vədi verən Tom Sankaranın göstərişi ilə Burkina – Faso adlandırılıb.

**5 avqust**

• 1858 — Atlantik okeanı üzərindən Böyük Britaniya və ABŞ-ni birləşdirən teleqraf kabeli çəkilib. Kabel "Atlantic Telegraph Company" adlı səhmdar cəmiyyəti tərəfindən çəkilib və 4500 km. uzunluğunda olub. 16 avqust 1858-ci ildə İngiltərə kraliçası Viktoriya (1837 – 1901 –ci illər) və ABŞ-nin 15-ci prezidenti Ceyms Byuneken ( 1857 – 1861-ci illər) kabel vasitəsi ilə bir - birini təbrik ediblər.

• İranda İslam İnsan Hüquqları Günüdür. Həmin gün 1990-cı ildə İslam Əməkdaşlıq Təşkilatına üzv ölkələrin xarici işlər nazirləri Qahirədə İslam ideyaları əsasında Qahirə Bəyannaməsi adı ilə məşhur İslam İnsan Haqları Bəyannaməsini qəbul ediblər.

**6 avqust**

• 1806—Napoleon tərəfindən məğlub edilən Müqəddəs Roma imperatoru II Frants taxtdan imtina edib. Beləliklə, vaxtilə mərkəzi Avropanın böyük hissəsini əhatə edən və 844 il ərzində (962-ci ildən) mövcud olan Müqəddəs Roma İmperiyası ləğv edilib.

• 1996—Çeçen döyüşçülər rus nəzarətindəki Qrozni şəhərinə "Cihad" əməliyyatı çərçivəsində hücuma başlayıb. Nəticədə ruslar məğlub edilərək şəhəri tərk etməli olub.

• Ümümdünya Xirosima, başqa adı ilə Ümumdünya Nüvə Silahının ləğvi uğrunda Mübarizə Günüdür. Tarix 6 avqust 1945-ci ildə yapon şəhəri Xirosimaya ABŞ tərəfindən nüvə bombası atılması ilə əlaqəlidir.

**7 avqust**

• 1999—Çeçen komandirlər Şamil Basayevin və ərəb əsilli Xattabın başçılıq etdiyi silahlı qrup Dağıstan ərazisindəki bir sıra kəndi ələ keçirib, nəticədə İkinci Çeçen Müharibəsi başlayıb.

• 2008—Tsxinvali regionundakı münaqişə 5-günlük Rusiya-Gürcüstan müharibəsinə səbəb olub. Müharibə nəticəsində Gürcüstanın bir sıra ərazisi Rusiya tərəfindən işğal edilib, onların əhalisi isə ölkə içi qaçqına çevrilib.

## İOSEB QRİŞAŞVİLİ



***Gürcü şair və ictimai fəal İoseb Qrişaşvili 24 aprel 1889-cu ildə Tbilisinin Xarpuxi məntəqəsində anadan olub.*** Tbilisinin Gürcü Gimnaziyasında təhsil alıb, lakin təhsilini bitirməyib. Gənc yaşlarından gürcü teatrında aktyor, suflyor və ssenari müəllifi kimi fəaliyyət göstərib. Həmin vaxt şeir yazmağa da başlayıb.

1906-cı ildə müəllifin "Qızıl gül dəsti", 1907-ci ildə isə "Fantaziya" adlı şeirlər toplusu nəşr edilib. Toplulara daxil olan şeirlərin əksəriyyətinin mövzusu gürcü gündəlik həyatı və şairin eşq hissləridir. Bununla belə, həmin dövrdə şairin sosial problemləri ələ alan "Dustağın mahnısı" (1906-cı il), "Mübarizə" (1907-ci il), "Əs, külək!" (1907-ci il) adlı şeirləri də nəşr edilib. Ümumilikdə, şair yaradıcılığının birinci dövründə (1905-1920-ci illər) məhəbbət mövzusunda şeirlər yazıb. Qrişaşvili üçün məhəbbət tükənməz xoşbəxtlik, səxavət və fədakarlıq mənbəyi olub.

Sonrakı dövrdə şair ictimai və vətəndaş məsələlərini qələmə almağa başlayıb. "Kənddə bir gün" (1934-cü il), "Vətənə" (1938-ci il), "Mükafat" (1944-cü il), "Samqori" (1951-ci il) həmin mövzular haqda yazdığı şeirlərdir. Vətən sevgisi Qrişaşvilinin poeziyasında Tbilisi mövzusu ilə üzvi şəkildə qovuşur. Qrişaşvilinin şeirlərində Tbilisinin tarixi, şəhər həyatının rəngarəng obrazları, mərd, istiqanlı, səxavətli Tbilisililər, şəhərin keçmişi və bu günü, gələcəyinin perspektivləri bizə təqdim olunub.

Qrişaşvili "Sayat Nova", "Qədim Tbilisinin ədəbi boheması" adlı tədqiqat əsərlərini , eləcə də A. Çavçavadze, İ. Çavçavadze, A. Kazbeqi, Mixail Lermontov və başqa yazıçıların yaradıcılığı haqda tədqiqatlar nəşr edib. O, erməni və Azərbaycan ədəbiyyatının bir çox klassik əsərlərini, Anna Axmatovanın, Sergey Mixalkovun, Stepan Şipaçovun, Vera İnberin və başqalarının şeirlərini tərcümə edib.

Qrişaşvili XX əsrin gürcü versifikasiyasının islahatçılarından biri olub. Müəllifin şeirlərinin orijinal ritmi və qafiyəsi, təsirli poetik duyğuları, ustad ruhu şairin ideya niyyətini incəliklə ifadə edir.

İoseb Qrişaşvili 3 avqust 1965-ci ildə Tbilisidə vəfat edib. Tbilisidə şairin adına küçə də var.

## RAMİZ MƏLİK



***XX əsrin görkəmli Azərbaycan aktyoru Ramiz Məlik 4 avqust 1943-cü ildə Bakıda anadan olub.*** 1961-ci ildə sənədlərini hazırkı Neft Akademiyasına verib, lakin oraya qəbul olunmayıb. Gələcək aktyor İki il sonra, 1963-cü ildə Mirzağa Əliyev adına Azərbaycan Dövlət Teatr İnstitutunun dram və kino aktyorluğu fakültəsinə daxil olub. Burada gənc Ramiz rejissor və aktyor Rza Təhmasib, Tofiq Kazımov və Məlik Dadaşov kimi həmin dövrün Azərbaycan teatr və kino sənətinin məşhur simalarından dərs alıb. 1967-ci ildə Ramiz Məlik ali təhsilini başa çatdırıb. Həmin il Akademik Milli Dram Teatrının truppasının aktyoru kimi fəaliyyət göstərməyə başlayıb. Aktyorluqla yanaşı, Əkrəm Əylislinin "Yastı təpə", Leonard Frankın "Yad adam", İlyas Əfəndiyevin "Xurşidbanu Natəvan" və s. pyeslərinin tamaşaya hazırlanmasında rejissor və rejissor assistenti kimi də çalışıb.

Ramiz Məlik teatr səhnəsində Uilyam Şekspirin məşhur "Hamlet"ində Marsel, Cəfər Cabbarlının "Od gəlini" pyesində Aqşin, "Almaz" əsərində Barat, fransız yazıçı Jan Pol Sartrın "Dəfn edilməmiş ölülər" adlı əsərində Jan və s. kimi dünya ədəbiyyatındakı bir çox məşhur obrazları canlandırıb.

Ramiz Məlik kino sənətində də aktyor kimi fəaliyyət göstərib. O, 1970-ci ildə Cəfər Cabbarlının məşhur eyniadlı əsəri əsasında çəkilmiş "Sevil" filmində epizodik rolu canlandırıb. 1971-ci ildə məşhur azərbaycanlı rejissor Kamil Rüstəmbəyovun "Axırıncı aşırım" filmində İkinci planda rol alıb. 1977-ci ildə çəkilmiş "Ürək... Ürək..." filmində həkim obrazını canlandırıb. Müasir Azərbaycan kinematoqrafiyasında da Ramiz Məlik bir sıra rolları ilə yadda qalıb: 2000-ci ilin "Girov" filmində ata, 2005-ci ildə çəkilmiş "Əlavə təsir" filmində jurnalist və 2012-ci ilin "Bir ailə" adlı seriyalında isə ailə başçısı rollarını ifa edib.

Ramiz Məlik xidmətlərinə görə bir çox mükafatla təltif olunub. O, Azərbaycan Teatr Xadimləri İttifaqının təsis etdiyi "Sənətkar" medalına və Cəfər Cabbarlı mükafatına layiq görülüb.

Ramiz Məlik 14 Dekabr 2023-cü ildə Bakıda vəfat edib.

## MOLDOVA




***Moldova Avropanın cənub - şərqində yerləşir. Ölkə şərqdə Ukrayna, qərbdə isə Rumıniya ilə həmsərhəddir və dənizə çıxışı yoxdur. Moldovanın paytaxtı Kişinyov şəhəridir.*** Böyük şəhərləri Beltsi, Tiraspol, Benderi və Ribnitsadır. Ölkənin rəsmi dili şərqi roman dillərinin Balkan – roman qrupuna aid rumın dilinin moldavan ləhcəsidir. Ölkənin ərazisi 33 846 kv. km-dir. Əhalisinin sayı 2 603 813 nəfərdir. Pul vahidi Moldovan Leyidir.

**Tarixi:** Eramızdan əvvəl IV – III əsrlərdə müasir Moldova ərazisində frakiyalı xalqlar - qetlər və dakiyalılar məskunlaşıb. Yeni eranın 101 – 102-ci və 105 – 106 –cı illərində dakiyalılar Roma imperatoru Trayan tərəfindən məğlub ediliblər və müasir Rumıniya, Bolqarıstan və Moldova əraziləri Roma imperiyasının tərkibinə qatılıb. 271-ci ildə qotların (alman əsilli xalq) təzyiqi altında romalılar bu əraziləri tərk etməli olublar. Bu dövrdən başlayaraq Moldova ərazisinə müxtəlif alman, slavyan və türk xalqları axın edib. 1359-cu ildə Moldova Knyazlığı yaradılıb. 1456-cı ildə Moldova Knyazlığı Osmanlı İmperiyasına tabe olub. XVIII – XIX əsrlərdəki rus-türk müharibələri nəticəsində Moldova Rusiya İmperiyasının tərkibinə qatılıb.

1917 – 1918-ci illərdə gedən inqilabi proseslər nəticəsində Rusiya İmperiyası süqut edib. Həmin zaman Rumıniya Moldova ərazisinə qoşun yeridib. 27 mart 1918-ci ildə Moldova rəsmi olaraq Rumıniyanın tərkibinə daxil olub.

27 iyun 1940-cı ildə SSRİ Rumıniyadan Moldova ərazisini tələb edib. SSRİ ilə müharibədən çəkinən Rumıniya bu tələbi yerinə yetirməli olub və 28 iyun 1940-cı ildə sözügedən əraziyə sovet qoşunları yeridilib. 2 avqust 1940-cı ildə SSRİ-nin tərkibində Moldova Sovet Sosialist Respublikası yaradılıb. 22 iyun 1941-ci ildə Almaniya ilə birlikdə SSRİ-yə hücum edən Rumıniya həmin ərazini yenidən öz tərkibinə daxil edib. 20 – 29 avqust 1944-cü ildə Qızıl Ordunun uğurlu Yas – Kişinyov əməliyyatı nəticəsində rumın - alman qoşunları məğlub edilib və Moldova SSRİ-nin tərkibinə qaytarılıb.

27 avqust 1991-ci ildə Moldova müstəqil respublika olub. Müstəqillik dövrünün başlanğıcı ölkə üçün olduqca ağır olub: Pridnestrovye (Dnestryanı) regionundakı etnik və siyasi qarşıdurma silahlı münaqişəyə çevrilib. Sözügedən regiondakı separatçı qüvvələr Rusiyadan dəstək aldıqlarına görə, Moldova nəzarəti ələ almağa nail olmayıb. Nəticədə Moldova ərazisinin 12, 3 faizində beynəlxalq icma tərəfindən tanınmamış separatçı Pridnestrovye (Dnestryanı) Moldova Respublikası yaranıb. Günümüzdə Moldova Aİ və NATO-nun tərkibinə girmək istəyir və Rusiya ilə əlaqələri olduqca gərgindir.

**Coğrafiyası:** Moldova ərazisi çay dərələri ilə ayrılmış təpəli düzənlikdən ibarətdir. Moldova Respublikasının çay şəbəkəsi Qara dəniz hövzəsinə aid çoxsaylı daimi və mövsümi çaylardan ibarətdir. Onların arasında ən böyük və ən məşhuru Dnestr və Prut çaylarıdır. Hazırda Moldova ərazisində 57 təbii göl var. Onlardan ən böyüyü Beleu, Drachele, Rotunda və s. gölləridir.

**İqtisadiyyatı:** Moldova iqtisadiyyatında kənd təsərrüfatı sektoru mühüm yer tutur və əsas olaraq meyvə, tərəvəz və tütün istehsalı ilə məşğuldur. Ölkə qida sənayesinə malikdir.

**Dövlət quruluşu:** Moldova parlament respublikasıdır. Moldova prezidenti dövlət başçısıdır. Prezident vətəndaşların birbaşa, gizli, azad səsverməsi yolu ilə dördillik müddətinə seçilir. Ölkənin hazırkı prezidenti Maya Sandudur. Ölkənin ali qanunverici orqanı birpalatalı parlamentdir. Deputatlar 4 faizlik baryerlə proporsional sistem əsasında 4 il müddətinə seçilirlər.

**Elm və təhsil:** Dünya Bankının məlumatına görə, 2013-cü ildə ümumi savadlılıq səviyyəsi 99,17%, 15-24 yaşlı gənclər arasında savadlılıq səviyyəsi isə 100% təşkil edib. Moldovada 18 dövlət və 11 özəl ali təhsil müəssisəsi var. Moldova Elmlər Akademiyası ölkədə təbiət və sosial elmlər sahəsində aparıcı fundamental tədqiqat mərkəzidir. Biblioqrafik qeydlər Kitab Palatası tərəfindən aparılır.



# GÜRCÜSTAN

Qəzet 1921-ci ildən nəşr olunur
გაზეთი 1921 წლიდან იბეჭდება

" საქართველო "
" S A K A R T V E L O "

Qəzetimiz milli sərvətimizdir
ჩვენი გაზეთი ეროვნული სიმდიდრეა




MƏDƏNİYYƏT

## QƏBƏLƏ FESTİVALINDA "TBİLİSİ BİG BAND" MUSİQİ QRUPU ENERJİ DOLU ÇIXIŞI İLƏ MUSİQİSEVƏRLƏRİ SEVİNDİRİB



***XIV Qəbələ Beynəlxalq Musiqi Festivalının qonaqları sırasında Gürcüstanın tanınmış "Tbilisi Big Band" musiqi qrupu da var.*** Festivalın proqramına uyğun olaraq, iyulun 27-də axşam "Qafqaz Resort" otelindəki açıq səhnə Gürcüstandan gətmiş musiqi qrupunun ixtiyarına verilib.

Kollektivin caz, ritm və enerji dolu əsrarəngiz çıxışı musiqisevərlərin ürəyincə olub və alqışlarla qarşılanıb.

"Tbilisi Big Band" musiqi qrupu Qəbələ festivalında üçüncü dəfədir iştirak edir. Professional musiqiçilərdən ibarət "Big Band" 1997-ci ildə yaradılıb və Gürcüstanın aparıcı kollektivlərindən biridir. Orkestr estrada ifaçılığı, xüsusilə də gürcü caz ənənələrinə sadiq qalaraq, son illər bir çox uğura imza atıb. Hazırda qrupun repertuarında müxtəlif janrları əhatə edən yüzlərlə əsər var. Buraya gürcü və xarici müəlliflərin vokal və instrumental kompozisiyaları daxildir. Musiqi qrupu 2006-cı ildə Monte Karloda keçirilən Beynəlxalq Caz Festivalında Qran-Pri mükafatına layiq görülüb. Orkestrlə birgə G. Şiller, B. Mintser, R.Ayers, İ.Butman, C.İzaak, D.Teffer kimi tanınmış musiqiçilər çıxış edib.

KRİMİNAL

## RÜŞVƏT ALMAQDA İTTİHAM OLUNAN MƏMUR SAXLANILIB

***Gürcüstan Maliyyə Nazirliyinin İstintaq Xidməti rüşvət alma faktına görə bir nəfəri – Zuqdidi Bələdiyyəsinin Orsanti inzibati vahidində merin nümayəndəsi E. B. - ni saxlayıb.***

Bu barədə rəsmi məlumat Maliyyə Nazirliyinin İstintaq Xidməti tərəfindən yayılıb.

İstintaqın məlumatına görə, E. B. vəzifə səlahiyyətlərini yerinə yetirərkən şəxsi maddi maraqlarını təmin etmək məqsədilə 300 lari məbləğində rüşvət alaraq bir vətəndaşa ağac və bitkilərin mənşəyini təsdiqləyən saxta arayış hazırlayıb və təqdim edib. Həmin əməliyyat zamanı E. B. cinayət başında yaxalanıb.



Faktla bağlı istintaq Gürcüstan Cinayət Məcəlləsinin 338-ci maddəsinin birinci hissəsi ilə aparılır. Maddə 6 ildən 9 ilədək azadlıqdan məhrumetmə cəzasını nəzərdə tutur.

DÜNYA, SƏNDƏN KİMLƏR KÖÇDÜ...

## SƏNƏT ƏBƏDİDİR...



Borçalı aşıq sənətinə ağır itki üz verib. Aşıq Mehman Məhəmməd oğlu dünyasını dəyişib. O, 1957-ci il 15 noyabr tarixində Marneuli rayonunun Mollaoğlu kəndində, ustad sənətkar, gözəl insan, sənətkarlığı və insanlığı ilə ad qazanmış Aşıq Məhəmməd Sadaxlının ailəsində dünyaya gəlmişdir. Uşaq yaşlarından aşıqlıq sənətinin incəlikləri ilə yaxından tanış olmuşdur - onun atası aşıq Məhəmməd Sadaxlı Borçalının sayılıb - seçilən, məclislər urvatı ustad aşıqlarından biri idi. Aşıq Məhəmmədin özü məşhur Xındı Məmmədin şagirdi olub.

Aşıq Mehmanın ilk müəllimi öz atası olub, sonra isə o, atasının ustadı Xındı Məmmədin oğlu aşıq Gülabı Xındı Məmməd oğlundan dərs almışdır. Artıq püxtələşərək ustad səviyyəsinə yüksələn Aşıq Mehman Sadaxlı kəndinin Mədəniyyət Evində saz dərsləri keçərək, bu tarixi sənətin sirlərini gənclərə öyrətmişdir. Onun onlarca yetirməsi bu sənəti layiqincə təmsil edir.

**Allah rəhmət eləsin!**

ELAN

"Gürcüstan" qəzetində "Soruşun-cavab verək" adlı hüquq məsləhəti güşəsi fəaliyyət göstərir. Bu guşədə hüququn bütün sahələrinə (İnzibati, Mülki, Cinayət və s.) aid məsələlərlə bağlı sizi maraqlandıran istənilən suala cavab ala bilərsiniz

Guşənin aparıcısı təcrübəli hüquqşünas, Gürcüstan Vəkillər Assosiasiyasının üzvü **Robinzon Levanoviç Papidzedir**.

**Əlaqə telefonu: +995 593 97 85 15;**

**Ünvan:** Tbilisi şəh. Akaki Tsereteli pros. 142, I mərtəbə.

## İLK YAYLAQ GƏZİNTİSİ...



**Foto E.Şahvələdindir.**

KƏŞF

## YER KÜRƏSİ BÖYÜKLÜYÜNDƏ PLANET TAPILIB



***Amsterdam Universitetinin astronomları Yerin ölçüsünə bənzəyən, lakin fərqli xüsusiyyətlərə malik "TOI-2431b" adlı ekzoplanet kəşf ediblər.***

Planet Yerdən 117 işıq ili uzaqlıqdadır və bir ili cəmi 5.4 saat davam edir.

Bu ekzoplanet "TESS" kosmik teleskopu vasitəsilə müəyyən olunub. Alimlər bildirir ki, "TOI-2431b" Günəşə son dərəcə yaxın - təxminən 933 min kilometr məsafədə yerləşdiyi üçün səthindəki temperatur 1727 dərəcə Selsiyə çatır. Bu istilik qayaların və metalların əriməsinə səbəb ola bilər.

Planetin radiusu Yerdən 1.5 dəfə, kütləsi isə 6.2 dəfə böyükdür. Güclü cazibə qüvvəsi onun formasını dəyişib və nəticədə planet yastı görünüş alıb.

ƏMƏKDAŞLIQ

## GÜRCÜSTAN VƏ ERMƏNİSTAN ARASINDA YENİ SƏRHƏD-KEÇİD MƏNTƏQƏSİ YARADILIR



***Gürcüstan Maliyyə Nazirliyinin Gəlirlər Xidmətinin nümayəndələri İrəvanda idarələrarası görüş zamanı Gürcüstan və Ermənistan arasında gömrük-keçid məntəqəsindən birgə istifadə layihəsinin həyata keçirilməsi ilə bağlı məsələləri müzakirə ediblər.***

Bu barədə nazirliyin məlumatında qeyd olunub.

Səfər zamanı Gömrük İdarəsinin rəisi vəzifəsini icra edən Mixeil Çokaşvili işçi qrupların tərkibini müəyyən edən sənədi imzalayıb.

Onun sözlərinə görə, layihənin həyata keçirilməsi gömrük idarələri arasında səmərəli əməkdaşlığa, təhlükəsizlik tələblərinə əməl olunmasına və yük axınının artması şəraitində qanuni ticarətə təkan verəcək.

Hazırda Sadaxlı - Tsopi - Ağkörpü avtomobil yolunun Gürcüstanın Ermənistanla sərhədinə gedən hissəsində təmir işləri aparılır.

PROQNOZ

## AVQUSTUN 1-dək ÖLKƏ ƏRAZİSİNDƏ GÖZLƏNİLƏN HAVA PROQNOZU AÇIQLANIB



***1 avqust tarixinədək ölkə ərazisində günəşli və isti hava şəraiti hökm sürəcək.***

Bu barədə Milli Ətraf Mühit Agentliyi məlumat yayıb.

Məlumata əsasən, qeyd olunan tarixlərdə arabir şimal-qərb küləyi əsəcəyi gözlənilir.

Sinoptiklər qarşıdakı günlərdə havanın temperatur göstəricilərinin +34, +37 dərəcə təşkil edəcəyini proqnozlaşdırırlar.


**Qəzetin bank hesabı**

**გაზეთის საბანკო ანგარიში**

**შპს გაზეთ „გურჯისტანი" ს/კ 203863792**

**ანგ. № GE03LB0111185703773000**

**სს ლიბერთი ბანკი SWİFT: LBRTGE22**



Baş redaktor: Xaləddin YOLÇUYEV

Redaktor müavini: Binnət MƏMMƏDOV

Redaksiyanın ünvanı: Tbilisi şəh. Akaki Tsereteli pros. 142, I mərtəbə. E-mail: Gurcustan_1921@mail.ru İNDEKS 66444 Əlaqə telefonu: +995 32 222 04 76

Qəzet "Kolori" nəşriyyatında çap olunur. Redaksiyaya gələn əlyazmalar geri qaytarılmır və onlara rəy verilmir. Müəllifin mövqeyi ilə redaksiyanın mövqeyi müxtəlif ola bilər.